## Sağlam gənclik, sağlam gələcək deməkdir!



6

SƏS
№ 145 (6586) 16 avqust 2022-ci il. Qiymәti 60 qəpik

# Prezidentin regionlara hər səfəri ümumi inkişafa böyük təkan verir!

*İLHAM ƏLİYEV:*
*"Son illərdə Ağsu və İsmayıllı rayonlarında böyük infrastruktur layihələri icra edilmişdir"*



3

# Köç edənlər və bunun qarşısında ACİZ QALAN ERMƏNİSTAN




5

## Dərsliklərlə bağlı qarşılaşdığımız əsas problemlər hansılardır?



7

## "Vətən uğrunda ölənlər ölümündən doğular"



10

## Qidamızı özümüz istehsal edə bilərikmi?



15

## Mbappedən PSJ-yə ŞƏRT: Neymarı satın!




16

# Azərbaycanın beynəlxalq nəqliyyat potensialına Mərkəzi Asiya ölkələri böyük maraq göstərirlər

## Prezident İlham Əliyev Qırğızıstan Nazirlər Kabinetinin sədr müavinini qəbul edib



***Prezident İlham Əliyev dünən Qırğız Respublikasının Nazirlər Kabinetinin sədr müavini Bakıt Torobayevi qəbul edib. Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Bakıda keçiriləcək iclasına toxunaraq, bu formatın iqtisadi və digər sahələrdə qarşılıqlı fəaliyyətin möhkəmlənməsi işinə xidmət edəcəyinə ümidvarlığını bildirib.***

İkitərəfli əlaqələrdən danışan dövlətimizin başçısı yüksək səviyyəli qarşılıqlı səfərlərin münasibətlərimizin genişləndirilməsinə verdiyi töhfəni qeyd edib, eyni zamanda bu baxımdan Qırğız Respublikasının Prezidentinin bu il ölkəmizə səfəri zamanı əməkdaşlığın geniş gündəliyi ilə bağlı səmərəli danışıqların aparıldığını və dövlət başçıları arasında çox yaxşı şəxsi təmasın qurulduğunu diqqətə çatdırıb. Prezident İlham Əliyev bildirib ki, səfər çərçivəsində ikitərəfli əlaqələrin möhkəmləndirilməsi, beynəlxalq təşkilatlarda əməkdaşlıq, Azərbaycanın Qırğızıstana investisiya qoyuluşu və əməkdaşlığın digər sahələrini əhatə edən məsələlərlə bağlı müzakirələr aparılıb.

Ölkəmizdə şaxələndirilmiş nəqliyyat infrastrukturunun yaradıldığını qeyd edən dövlətimizin başçısı Azərbaycanın beynəlxalq nəqliyyat potensialına digər ölkələrin, o cümlədən Mərkəzi Asiya ölkələrinin getdikcə daha böyük maraq göstərdiyini diqqətə çatdırıb. Azərbaycan Prezidenti eyni zamanda, Mərkəzi Asiya regionunda da Xəzər dənizi hövzəsinə çıxan yeni dəmir yolu şəbəkələrinin yaradılması ilə bağlı planların da əhəmiyyətini vurğulayıb.

Bakıt Torobayev, ilk növbədə, Qırğız Respublikasının Prezidenti Sadır Japarovun salamlarını dövlətimizin başçısına çatdırıb. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Sadır Japarova çatdırmağı xahiş edib.

Qonaq qeyd edib ki, tarixi, mədəni köklərə söykənən Azərbaycan-Qırğızıstan münasibətlərinin müasir dövrdə əsası dünya səviyyəli tarixi şəxsiyyət, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulub və bu gün Prezident İlham Əliyevin dəstəyi ilə strateji tərəfdaşlıq səviyyəsinə qalxıb.

Söhbət zamanı humanitar və təhsil sahələrində əməkdaşlığın önəmi qeyd edildi, kənd təsərrüfatı, energetika, investisiya qoyuluşu ilə bağlı gələcək əməkdaşlıq məsələləri müzakirə olunub.

# Rosen Plevneliev: Azərbaycanın təbii qazı Bolqarıstan üçün əsas prioritetdir

**Avropa Komissiyasının Prezidenti xanım Ursula fon der Lyayenin Bakıya səfəri və Azərbaycan Prezidentinin Avropada enerji təhlükəsizliyinin təmin olunmasına dəstəyi xüsusi əhəmiyyət kəsb edir. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin baş katibi Rövşən Muradov AZƏRTAC-a bildirib ki, bu sözləri Bolqarıstanın sabiq prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü Rosen Plevneliev söyləyib.**



Azərbaycanın təbii qazının Bolqarıstan üçün əsas prioritet olduğunu deyən sabiq Prezident bildirib: "Hazırda 1 milyard kubmetr qaz üçün müqaviləmiz var və biz daha çox qaz almaq istəyirik. Amma Bolqarıstanın hazırkı istehlakı 3 milyard kubmetrdir. Çatışmayan həcmlər üçün başqa mənbələrdən qaz təmin etməliyik. "Qazprom" ilə müqaviləmiz bu ilin sonunda başa çatır və yeni müqavilə olmayacaq".




## Misir mətbuatı: "Prezident İlham Əliyev Ermənistanın hərbi təxribatlarına qətiyyətli cavab veriləcəyini bəyan edib"







Misirin "Əl Əhram", "Əl Nahar", "Royah", "Ahl Masr", "Dar Əl Marif" və digər mətbu orqanları Azərbaycan Prezidenti İlham Əliyevin İsmayıllı rayonunun Basqal qəsəbəsində Azərbaycan Televiziyasına verdiyi müsahibənin əsas məqamlarını işıqlandırıb.

AZƏRTAC və digər agentliklərin xəbərlərinə istinadla dərc olunan materiallarda diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev bu yaxınlarda Ermənistan tərəfinin növbəti dəfə silahlı təxribata əl atdığını və bu hərbi təxribat nəticəsində bir hərbçinin şəhid olduğunu bildirib. O əlavə edib ki, şəhidin qanının yerdə qalmadığını hər kəs gördü və Azərbaycan Ordusu dərhal "Qisas" əməliyyatı keçirərək qarşı tərəfi ciddi cəzalandırdı. Azərbaycanın dövlət başçısı vurğulayıb: "Bir neçə saat ərzində davam edən "Qisas" əməliyyatı cəza tədbiri idi. Azərbaycan şəhidinin qanı düşmənlərə baha başa gəldi və onlar bunu unutmamalıdır. Əgər yenə də buna oxşar təxribat törədilərsə, cavab da eyni olacaq və heç kim bizə mane ola bilməz, heç kim bizi durdura bilməz. Biz öz torpağımızda istənilən əməliyyatı istənilən zaman apara bilərik. Sadəcə olaraq, "Qisas" əməliyyatının çox təsirli, ancaq qısamüddətli olması onu göstərir ki, bizim gücümüz də yerindədir, eyni zamanda, biz yeni müharibə istəmirik".

Misir ictimaiyyətinin diqqətinə çatdırılıb ki, Prezident İlham Əliyev bir daha Ermənistanı yeni reallıqları qəbul etməyə və hərbi təxribatlara son qoymağa çağırıb.

# Prezidentin regionlara hər səfəri ümumi inkişafa böyük təkan verir!

*İLHAM ƏLİYEV: "Son illərdə Ağsu və İsmayıllı rayonlarında böyük infrastruktur layihələri icra edilmişdir"*









Azərbaycan Prezidenti İlham Əliyevin ölkənin rayon və bölgələrinə etdiyi müntəzəm səfərlər regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrasının effektivliyinin təmin olunması baxımından müstəsna əhəmiyyət kəsb edir. Məhz bu səfərlər zamanı verilən dövlət tapşırıqlarının icrası yerində yoxlanılır, baş tutan açılışlar və təməlqoyma mərasimləri isə görülmüş işlərin həcminin göstəricisidir. Dövlətimizin başçısının regionlara etdiyi səfərlər iqtisadi əhəmiyyətinə paralel olaraq həm də böyük siyasi önəm kəsb edir. Prezident İlham Əliyevin rəhbərliyi altında ölkədə davam edən inkişaf tempinə müvafiq olaraq regionlarda abadlıq-quruculuq, yenidənqurma işləri davam etdirilir. Regionların iqtisadiyyatını möhkəmləndirməklə yanaşı, burada yaşayan əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması və məşğulluğunun artırılması istiqamətində də əməli işlər görülür. Dövlət başçısının müvafiq sərəncamlarına uyğun olaraq, yolların tikintisi və yenidən qurulması, su, qaz, elektrik təsərrüfatlarının yenilənməsi və müasirləşdirilməsi, körpülərin salınması, sosialyönümlü obyektlərin yenidən qurulması və əsaslı təmiri prosesi davam edir. Bütün bu sadalanan amillər ölkə başçımız tərəfindən həm regionlara, həm də orada yaşayan vətəndaşlarımıza, onların sağlamlığına, maddi rifahına göstərilən xüsusi diqqətin təzahürüdür. Cənab Prezidentin müxtəlif bölgələrə müntəzəm səfərləri isə regionların tarazlı şəkildə inkişafına və müasirləşməsinə birbaşa xidmət edir. Elə bu günlərdə Prezident və birinci xanım Mehriban Əliyevanın İsmayıllı və Ağsu rayonlarına səfərləri, səfər çərçivəsində bir sıra mühüm sosial obyektlərin açılışında və yerlərdə işlərlə birbaşa tanış olması dövlət başçımızın regionlarımızın günbəgün inkişaf etməsi ilə bağlı uğurlu siyasətinin reallığıdır. Səfər çərçivəsində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qobustan rayonunda "Diri Baba" türbəsində aparılan yenidənqurma işləri ilə tanış olublar. Həmçinin, İsmayıllıda "Basqal Resort & Spa" otelinin iştirak ediblər, "Basqal" Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində aparılan və icrası nəzərdə tutulan tikinti-bərpa işləri ilə tanış olublar. Həmçinin, dövlətimizin başçısı və birinci xanım buradakı emalatxanada kəlağayı ustası ilə söhbət ediblər. Prezident İlham Əliyev Ağsuda Gənc Sənətkarlar Mərkəzinin və Dövlət Rəmzləri Muzeyinin açılışında iştirak edib. Ağsu rayonunda "Ağsu Aqropark" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyəti ilə tanış olub. Qeyd edək ki, avqustun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İsmayıllı rayonunun Basqal qəsəbəsində Azərbaycan Televiziyasına müsahibə verib.

## SON İLLƏRDƏ HƏR İKİ RAYONDA BÖYÜK İNFRASTRUKTUR LAYİHƏLƏRİ İCRA EDİLMİŞDİR

Dövlət başçısı müsahibəsi zamanı bölgələrə səfərlərinin müntəzəm xarakter daşıdığını və görülən işlərə daha böyük diqqət yetirildiyini deyib: "Mənim bölgələrə səfərlərim müntəzəm xarakter daşıyır, həm vəziyyətlə tanış olmaq, həm də əlavə göstərişlərin verilməsi üçün. Gedən işlərə, bildiyiniz kimi, özüm nəzarət edirəm və son illər ərzində bütün bölgələrdə quruculuq-abadlıq işləri daha geniş vüsət almışdır. Bu gün Ağsu, İsmayıllı rayonlarına səfərim çərçivəsində burada görülmüş və görüləcək işlər haqqında həm göstərişlər verilmişdir, eyni zamanda, məruzələr edilmişdir". "Son illərdə hər iki rayonda böyük infrastruktur layihələri icra edilmişdir",-deyən dövlət başçısı onu da vurğulayıb ki, istər qazlaşdırma, istər elektrik enerjisi, su təchizatı, yolların tikintisi ilə bağlı çox böyük layihələr icra edilmişdir: "Təkcə onu demək kifayətdir ki, dağlıq rayon olmasına baxmayaraq, İsmayıllı rayonunda qazlaşdırma 80 faizdən çoxdur, Ağsu rayonunda 100 faizə yaxındır. Bu iki rayonda son illərdə 10-dan çox elektrik yarımstansiyası inşa olunmuşdur və elektriklə təchizat tam təmin edilib. Yolların çəkilişi ilə bağlı - həm kənd yollarında, eyni zamanda, İsmayıllı-Muğanlı yolunun yeni hissəsində işlər icra edilir. Sosial infrastrukturla bağlı böyük layihələr icra olunub. Hər iki şəhərdə - Ağsuda və İsmayıllıda 160 çarpayılıq xəstəxana tikilmişdir, 100-ə yaxın məktəb inşa edilmiş, ya da əsaslı şəkildə təmir olunmuşdur. İş yerlərinin yaradılması ilə bağlı böyük layihələr icra edilib. Bir sözlə, bu bölgənin gələcək inkişafı ilə bağlı çox güclü zəmin yaradılıb. Çünki bildiyiniz kimi, infrastruktur layihələri icra edilmədən inkişafdan söhbət gedə bilməz".

## "DİRİ BABA" TÜRBƏSİ ÖZ NADİRLİYİ İLƏ BÜTÜN QAFQAZ BÖLGƏSİNDƏ SEÇİLİR

"Bir müddət bundan əvvəl mənim tərəfimdən göstəriş verilmişdir ki, bu tarixi abidəmiz bərpa edilsin, həm konservasiya olunsun, həm də onun ətrafında turizm infrastrukturu yaradılsın. "Diri Baba" türbəsi öz nadirliyi ilə bütün Qafqaz bölgəsində seçilir",-deyən dövlət başçısı onu da vurğulayıb ki, yaşı 500 ildən çox olan bu türbə əsrlər boyu Azərbaycan xalqı tərəfindən müqəddəs yer kimi tanınıb: "Əlbəttə, bizim borcumuzdur ki, bu qədim tarixi abidəni yaşadaq, ona yeni həyat verək, bərpa edək və onun ətrafında mövcud olan şərait də müasir standartlara cavab verməlidir. Eyni zamanda, Basqal qəsəbəsinin inkişafı, Basqalın tarixi irsinin qorunması ilə bağlı bir neçə il bundan əvvəl mənim tərəfimdən xüsusi Sərəncam verilmişdir. Bu Sərəncam əsasında Dövlət Turizm Agentliyi burada artıq bir müddətdir ki, işlər aparır. İşlərin təqribən 50 faizi başa çatıb və bu gün hər kəs bunu görə bilər".

*Ardı Səh. 4*




TƏHLİL

# Prezidentin regionlara hər səfəri ümumi inkişafa böyük təkan verir!

*İLHAM ƏLİYEV: "Son illərdə Ağsu və İsmayıllı rayonlarında böyük infrastruktur layihələri icra edilmişdir"*



Əvvəli Səh. 3

### ƏMİNƏM Kİ, BASQAL QƏSƏBƏSİ LAHIC QƏSƏBƏSİ KİMİ, BU BÖLGƏNİN ÇOX QƏDİM TARİXİ YAŞAYIŞ MƏKANI OLARAQ ÖZ SİMASINI BÜTÜN DÜNYAYA AÇACAQ

Azərbaycan Prezidenti müsahibəsi zamanı qədim Basqal kəndinin inkişafı üçün böyük işlərini görüləcəyini, dünyada tanılacağının deyib: "Basqal bizim qədim kəndlərimizdən biridir, özünəməxsus tarixə malik olan bir yerdir. Əlbəttə, mən çox istəyirdim ki, həm bu yerin tarixi siması qorunsun, eyni zamanda, burada yaşayan insanlar üçün daha yaxşı şərait yaradılsın, - bunu da biz təmin etdik, - iş yerlərinin yaradılması üçün yeni imkanlar açılsın. Əminəm ki, Basqal qəsəbəsi Lahıc qəsəbəsi kimi, bu bölgənin çox qədim tarixi yaşayış məkanı olaraq öz simasını bütün dünyaya açacaq. Yəni, həm Azərbaycan vətəndaşları, həm ölkəmizdə olan qonaqlar, bildiyiniz kimi, indi Lahıca durmadan səfərlər edirlər. Əminəm ki, eyni aqibət Basqal qəsəbəsi üçün də olacaq. Bu məqsədlə bu tarixi yaşayış yerinin konservasiyası, bunun tarixi simasının qorunması xüsusi əhəmiyyət daşıyır".

### YƏNİ, İŞ YERLƏRİNİN AÇILMASI PROSESİ AZƏRBAYCANDA DAİM APARILMALIDIR

"Bu gün Basqal qəsəbəsinin girəcəyində yeni, 179 otaqlı müasir otelin açılışı oldu. Bu otelin açılışı, əlbəttə ki, bölgənin turizm potensialını böyük dərəcədə genişləndirəcək",-deyən Prezident İlham Əliyev vurğulayıb ki, İsmayıllı rayonunda bu obyektlərin yaradılması yüzlərlə iş yerinin açılması deməkdir: "Təkcə Basqaldakı oteldə 300-ə yaxın iş yeri açılır və orada işləyənlər də yerli vətəndaşlardır. Bu gün, eyni zamanda, Ağsu rayonunda böyük aqroparkın fəaliyyəti də bölgə iqtisadiyyatına töhfə verir. Orada da 200-ə yaxın iş yeri açılıb.Yəni, iş yerlərinin açılması prosesi Azərbaycanda daim aparılmalıdır. Çünki bizim əhalimiz artır, iş yerlərinə tələbat artır. Dövlət öz tərəfindən həm dediyim layihələrin icrası nəticəsində, eyni zamanda, özəl sektor üçün yaradılmış şərait nəticəsində yeni iş yerlərinin açılmasına böyük dəstək olur".

### ƏRZAQ TƏHLÜKƏSİZLİYİ MƏSƏLƏLƏRİ, ƏMİNƏM Kİ, AZƏRBAYCANDA MAKSİMUM DƏRƏCƏDƏ TƏMİN OLUNACAQ

Dövlət başçısı müsahibəsi zamanı həm turizm, həm kənd təsərrüfatı istiqamətlərinin bölgənin gələcək inkişafını təmin edəcəyini, kənd təsərrüfatının inkişafı ilə bağlı əvvəlki illərdə qəbul edilmiş qərarların öz bəhrəsini verəcəyini də söylədi: "Bildiyiniz kimi, bu gün ərzaq təhlükəsizliyi ilə bağlı dünyada çox böyük narahatlıq var. O cümlədən Azərbaycan da bu istiqamətdə fəal iş aparır. Görülmüş və görüləcək işlər nəticəsində biz özümüzü bu sahədə də təmin etmiş ölkəyə çevirəcəyik və ərzaq təhlükəsizliyi məsələləri, əminəm ki, Azərbaycanda maksimum dərəcədə təmin olunacaq". Prezident İlham Əliyev onu da bildirdi ki, biz öz iqtisadiyyatımızı dünya iqtisadiyyatına inteqrasiya edərək bazar iqtisadiyyatının bütün təməl prinsiplərini Azərbaycanda tətbiq etdik: "Bu gün Azərbaycanın ümumi daxili məhsulunun strukturuna baxsaq, görərik ki, ümumi daxili məhsulumuzun əksər hissəsini özəl sektor formalaşdırır, həm yerli şirkətlər, həm xarici investorlar, xarici şirkətlər. Belə olan halda dünyada gedən istənilən iqtisadi proses bizə də təsirsiz ötüşmür, bizə də təsir edir. O cümlədən dünyada mövcud olan ərzaq mallarının bahalaşması da, əlbəttə ki, bizə də təsir edir. Bu il dünyanın əksər ölkələrində inflyasiya ikirəqəmli inflyasiyadır. Bildiyiniz kimi, inkişaf etmiş ölkələrdə inflyasiya çox aşağı səviyyədə olur. İndi biz hətta o ölkələrdə ikirəqəmli inflyasiyanı görürük". "Ərzaq mallarının qiymətinin qalxması da Azərbaycana bir növ, - əgər belə demək mümkündürsə, - idxal olunub. Çünki biz hələ də özümüzü tam, yəni, 100 faiz əsas ərzaq məhsulları ilə təmin edə bilmirik",-deyən dövlət başçısı bu istiqamətdə ardıcıl işlərin aparıldığını söylədi: "Məsələn, bizim üçün ənənəvi olmayan heyvandarlıq sahəsində, yəni, - mən sovet dövrünü nəzərdə tuturam, o vaxt heyvandarlıq Azərbaycanda demək olar ki, az inkişaf etmişdi, - bu gün biz özümüzü ət məhsulları ilə 90 faiz, quş əti ilə 80 faiz, süd, süd məhsulları ilə 85 faiz səviyyəsində təmin edirik. Əminəm ki, növbəti 3-5 il ərzində biz yüz faiz səviyyəsinə çıxacağıq, baxmayaraq ki, tələbat da artır. Çünki əhali artır. Amma əfsuslar olsun ki, biz özümüzü taxılla hələ uzun illər tam təmin edə bilməyəcəyik. Özümüzü buğda ilə təminetmə əmsalı Azərbaycanda bu ilin əvvəlinə 62 faiz idi. Məhz bu məqsədlə xüsusi proqram işlənib hazırlandı, yeni növ subsidiyaların tətbiq edilməsinə start verildi və bunun nəticəsində əminəm ki, ərzaqlıq buğdanın Azərbaycanda istehsalı kəskin artacaq. Ancaq bu, vaxt tələb edəcək".

### TƏQRİBƏN 3-4 İL ƏRZİNDƏ BİZ ÖZÜMÜZÜ ƏRZAQLIQ BUĞDA İLƏ 80 FAİZ SƏVİYYƏSİNDƏ TƏMİN EDƏ BİLSƏK, BU, ÇOX BÖYÜK NƏTİCƏ OLACAQDIR

"Mən hesab edirəm ki, təqribən 3-4 il ərzində biz özümüzü ərzaqlıq buğda ilə 80 faiz səviyyəsində təmin edə bilsək, bu, çox böyük nəticə olacaqdır. Ona görə taxılın qiymətinin dünya bazarlarında qalxması bütün ölkələrə təsir göstərir. Ancaq bugünkü vəziyyət ondan ibarətdir ki, təkcə qiymətdən söhbət getmir, eyni zamanda, taxıl qıtlığı yaşanır",-deyən dövlət başçısı bildirdi ki, Rusiya-Ukrayna müharibəsi nəticəsində bir çox ölkələr fiziki cəhətdən öz əhalisini buğda ilə, taxılla təmin edə bilmirlər: "Çünki taxılın əsas ixracatçıları Rusiya və Ukrayna olduğu halda, indi müharibə əlbəttə ki, bu məsələdə çox böyük əngəllər törətmişdir. Ancaq Azərbaycanda bu sahədə heç bir problem yoxdur. Biz ənənəvi olaraq taxılı da, gübrəni də Rusiyadan alırıq. Rusiyalı tərəfdaşlarımızla əldə edilmiş razılaşmalar nəticəsində Azərbaycana istədiyimiz qədər həm gübrə, həm taxıl ixrac edilir və ediləcək. Gübrəyə gəldikdə isə, bildiyiniz kimi, biz özümüz də artıq gübrə istehsalçısı olmuşuq və hətta karbamid gübrəsini ixrac edirik. Amma digər gübrələr Azərbaycana idxal olunur. Bir sözlə, bax, bu amillər reallıqdır və biz real həyatda yaşayırıq. Özümüzü bütün problemlərdən tam sığortalamaq üçün praktiki işlər aparırıq və aparacağıq. Əminəm ki, növbəti illərdə həm bu gün mövcud olan əkin sahələrində daha bol məhsul götürmək üçün suvarma layihələri, düzgün aqrotexniki tədbirlərin görülməsi və digər tədbirlər, subsidiyalar nəticəsində biz məhsuldarlığı böyük dərəcədə artıra biləcəyik. Eyni zamanda, biz artıq azad edilmiş torpaqlarda da əkin-biçinlə məşğuluq. Mənim göstərişimlə vaxt itirmədən əkin işləri aparılmışdır, minalardan təmizləmə işləri aparılmışdır. Hesab edirəm ki, gələcəkdə Qarabağda və Şərqi Zəngəzurda yetişdiriləcək məhsullar, o cümlədən ərzaq təhlükəsizliyimizin tam təmin edilməsində bizə böyük kömək göstərəcək".

### AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ HƏM KƏND TƏSƏRRÜFATI, HƏM MALDARLIQ, HƏM BİTKİÇİLİK ÜÇÜN ÇOX MÜNBİT İQLİM VƏ TƏBİİ ŞƏRAİT VAR

"Əlbəttə, torpaqlarımız işğalçılardan azad olunandan sonra mən dərhal göstəriş verdim ki, biz vaxt itirmədən bu torpaqlarda əkin-biçinlə məşğul olmalıyıq. Bu il 50 min hektarda taxıl əkilmişdir və artıq məhsul yığımı da sona çatmaq üzrədir. Düzdür, məhsuldarlıq çox aşağıdır, bu da təbiidir. Çünki uzun illər bu torpaqlar istifadəsiz qalmışdır, suvarma da yoxdur, dəmyə şəraitində taxıl yetişdirilir və birinci ildir ki, əkin aparılmışdır. Ona görə hektardan orta məhsuldarlıq təqribən 1 tondan aşağıdır. Ancaq əminəm ki, növbəti illərdə məhsuldarlıq daha da artacaq, əkin sahələri artacaq. Mən hesab edirəm ki, biz azad edilmiş torpaqlarda taxılçılıq üçün ən azı 100 min hektarı dövriyyəyə buraxmalıyıq və əlbəttə ki, bütün müasir aqrotexniki tədbirlərin görülməsi, o cümlədən suvarma məsələlərinin düzgün təşkil edilməsi şərtilə". "Vaxtilə Azərbaycanda aparılmış kənd təsərrüfatı islahatı zamanı buraxılan səhvlərə yol verə bilmərik", -deyən Prezident İlham Əliyev onu da söylədi ki, hər şey düzgün, şəffaf olmalıdır və əminəm ki, bunun nəticəsində ən böyük məhsuldarlıq məhz işğaldan azad edilmiş torpaqlarda olacaq. Bir sözlə, Prezident İlham Əliyevin bölgələrə ardıcıl səfərləri, hər səfərindən sonra həmin rayonların sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi məqsədilə Tədbirlər Planının təsdiqləməsi, Prezidentin Ehtiyat Fondundan vəsaitlərin ayrılması və s. kimi mühüm tədbirlər həm ölkənin hərtərəfli inkişafına, həm də xalqın sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən addımlardır.

**RƏFİQƏ KAMALQIZI**



# Köç edənlər və bunun qarşısında ACİZ QALAN ERMƏNİSTAN

**İmpulsiv erməni xalqı artıq rasional olmaq barədə qəti qərara gəlməli və seçim etməlidir. Bütün dünyanın diqqətini cəlb etmək, hansısa uydurmaları şişirtmək, sonda da ağır nəticələrlə qarşılaşıb məyus olmaq bu xalq üçün xarakterikdir və qanunsuz, qəbuledilməz hərəkətlərinin məntiqi nəticəsi olaraq hər dəfə üzləşdikləri faciələrdən düzgün, məntiqi nəticələr çıxarmamaları onları daha böyük faciələrə sürükləyir. Ötən əsrin əvvəllərində torpaq iddiasına düşən ermənilər başlarına gələnlərdən, itgilərindən, ərazilərimizdən qovulmalarından düzgün nəticə çıxarsaydılar, yenə də xam xəyallara düşüb torpaq iddiasına düşməsəydilər 44 günlük müharibədə başlarına dəmir yumruq endirilməzdi və növbəti faciəni yaşamazdılar.**




Diqqətə çatdıraq ki, impulsiv pozuntulara kleptomaniya, yəni oğurlama xəstəliyi də daxildir və görünür, bu xəstəliyə düçar olanlar başqalarının torpaqlarını ələ keçirmək, oğurlamaq istəklərini dəf edə, bunun öhdəsindən gələ bilmirlər. Əks halda normal şəkildə, özü də zamanında torpaqlarımızdan çəkilib gedərdilər və indi kütləvi köç etmək məcburiyyətində qalmazdılar. Bu məcburiyyət isə onlar üçün əlbəttə ki, heç də arzuolunan sayıla bilməz, çünki belə vəziyyətdə dərhal məskunlaşma kimi yeni problemlərlə üzləşməli olurlar. Təbii ki, bu hal onların özlərinin günahı ucbatından yaranıb və şəraiti özləri belə yaradıblar, özləri də altını çəkmək məcburiyyətindədirlər və Ermənistan hakimiyyəti zamanında bunu nəzərə almalı idi ki, indi kütləvi köç edənlərin məskunlaşdırılması, sosial problemlərinin həll edilməsi kimi çox çətin problemlərlə qarşılaşmayaydı.

Azərbaycan tərəfi heç zaman etnik təmizləmə siyasəti yürütməyib Ermənistan kimi, əksinə, sivil qaldada köç edilməsinə hətta imkan da yaradıb, baxmayaraq ki, bunun əksini ötən əsrin sonlarında xalqımıza qarşı onlar ediblər. Xocalı faciəsi kimi dünyada tayı-bərabəri olmayan bir soyqırımın törədilməsindən sonra, indi bizim torpaqlarımızdan ermənilərin sivil qaydada köç etməsi Azərbaycanın dünyəvi, hüquqi, demokratik, humanist bir dövlət olduğunu təsdiqləyir. İkinci Qarabağ müharibəsində üzləşdikləri məğlubiyyətdən, imzaladıqları kapitulysiya sənədindən sonra, bir zaman torpaqlarımızı işğal edərək qanunsuz şəkildə məskunlaşanlara torpaqlarımızı dinc şəkildə tərk etmək imkanı verildi. Məsələ burasındadır ki, bu humanizmdən düzgün nəticə çıxarmayanlar köçməmişdən öncə həmin ərazilərdə yanğınlar törətdilər, evləri, meşələri, hətta həyətyanı sahədəki ağacları belə yandırıb sonra ərazilərimizi tərk etdilər. Bundan heç utanmadılar, əks halda indi Laçın rayonu ərazisində də köç etməzdən öncə bunu etməzdilər. Onu da diqqətə çatdıraq ki, piromaniya, yəni, qəsdən yanğın çıxarma xəstəliyi də məhz impulsiv pozuntulara aiddir və görünür, bu pozuntulardan qurtarmaq niyyəti yoxdur.

Tarixi faktlar təsdiq edir ki, köç etmək ermənilər, daha dəqiq desək, haylar üçün adi hal hesab olunub və bu toplum köç etməyə öyrəncəlidir. Onlar çox asanlıqla köçə bilirlər və köç onların milli arxetiplərini, milli metaforalarını təşkil edir. Türkmənçay müqaviləsindən sonra bölgəyə köçürülən ermənilərin bütün yükünü bir ədəd eşşəyə asanlıqla yükləyib ərazilərimizə gəlmələri, məskunlaşmaları onların köç etməyə necə alışqan olduqlarını təsdiq edir. Bu kimi tarixi faktlar hayların tarixində çoxdur və onların vətənsiz olduğunu göstərir. Eşşəyin üzərində gətirdikləri yüklə dövlət qurmaq istəkləri də vətənsizlik kompleksinin təzahürüdür. Doğrudur, tərəkəmə adətlərindən sayılan köç etmək ənənəsi barədə də məlumatlıyıq, amma bu köç hayların yerdəyişməsi ilə müqaisəyə gələ bilməz. Əvvəla, tərəkəmə adətlərinə görə, yəni heyvandarlıqla məşğul olma səbəbindən bir qrup insanlar arandan-yaylağa, yaxud da əksinə, yaylaqdan-arana köç ediblər və bu məşğulluqla bağlı olub. Digər tərəfdən də həmin tərəkəmə adətinin icrası zamanı insanlar öz vətənində köç ediblər, başqalarının torpaqlarına köçürülməyiblər. Ən əsası isə, həmin adətləri, tərəkəmə adətlərini icra edənlər bunu mədəni şəkildə ediblər, yaşadıqları yeri tərk edəndə səliqəsini belə pozmadan tərk ediblər, həmin əraziləri haylar kimi yandırmaqla yox. İndi ərazilərimizin qalan hissəsini də tərk edənlər əvvəlkilər kimi yandıraraq tərk edirlərsə, bu onların köç mədəniyyətini, daha doğrusu, mədəniyyətsiziyini ortaya qoyur. Aranda yaşadıqları öz evlərini, məskunlaşdıqları öz ərazilərini səliqə-sahman yaradaraq tərk edən tərəkəmə adətini icra edənlər yaylağa da öz evlərinə yola düşürlər, özü də bayram əhval-ruhiyyəsi ilə. Köç edənlər isə ənənələrinə uyğun olaraq indi də eşşəyi yüklədikləri kimi, müxtəlif minik maşınlarını yükləyirlər və ah-nalə içərisində, yaşadıqları yerləri yandıraraq, özü də özgə qapısına üz tutaraq köçürlər.

Onu da diqqətə çatdıraq ki, köç edən ermənilər artıq Ermənistan üçün böyük yük hesab olunur. Necə qarşılanacağı, harada və necə məskunlaşdırılacaqları da sual altındadır. Onların yerləşdirilməsi bəlli olsa belə, bunun öhdəsindən səfalət içərisində olan ölkə gələ biləcəkmi? Ermənistanın yox dərəcəsində olan dövlət büdcəsi köç edənləri yerbəyer etmək üçün hansı vəsaitə sahibdir ki, bu məsələni həll etsin? İqtisadi cəhətdən tənəzzül içərisində olan ölkənin əlavə qayğılarla qayğılanması təbii ki, böyük yükdür. Ermənistan indi növbəti sınaq qarşısındadır və bu yükün öhdəsindən gələcəyinə kimsənin ümidi yoxdur.

Təkcə məskunlaşma deyil, köç edənlərin digər sosial məsələlərinin həlli də olduqca vacib məsələdir. Nəzərə almaq lazımdır ki, köç edənlər məskunlaşdırılsa belə, onların yaşayışı ilə, dolanışığı ilə bağlı problemlərlə qarşılşacaqları da qaçılmazdır. Əvvəla, Ermənistanın vəziyyəti elə həddə deyil ki, sosial məsələlərin həllinin öhdəsindən gəlsin. Ermənistana üz tutanların kommunal xərclərinin belə öhdəsindən bu ölkənin gələcəyi inandırıcı deyil. Digər tərəfdən də, onların məşğulluq məsələlərinin həllinə özlərinin də ümidləri yoxdur. Belə bir çətin durum Ermənistan kimi ölkə üçün, sözün əsl mənasında, elə faciə həddindədir. Bu vəziyyət sosial partlayışların başlanması, hətta vətəndaş qarşıdurmalarının yaranması üçün əsaslı zəmin deməkdir. Onsuz da səbr kasası dolan erməni xalqı bu dəfə tamamilə dərin problemlərlə, sıxıntılarla qarşılaşırsa, deməli, mitinqlər, qarşıdurmalar gözləniləndir.

Dünyanın inkişaf etmiş ölkələri qida təhlükəsizliyi barədə həyəcan təbili çaldığı bir vaxtda, buna görə qayğılandığı bir zamanda Ermənistan kimi çılız bir ölkə bunun öhdəsindən çətin ki, gəlsin. Üstəlik, xeyli erməni əsilli Ermənistana üz tutursa, köç edirsə, bunun təminatı da müşkülə çevrilir. Köç edənlər Ermənistan üçün əlavə bir yükə çevrilib və indi bu ölkə hakimiyyətinin, bu dövlətin yetərincə problemləri ortaya çıxıb.

Bir zamanlar eşşəyin üstündə köç edən haylar Qafqaz xalqlarının hər hansı nümayəndəsinin qapısında nökər kimi işləyib dolanışıqlarını təmin edirdilərsə, indi buna da ümidləri yoxdur. Əvvəla ona görə ki, artıq hansısa xalqın nümayəndəsinin qapısına üz tutmaq şansları yoxdur və özününküləri narahat etmək məcburiyyətindədirlər. Digər tərəfdən də, üz tutduqları məkanda yaşayanlar özləri-özlərini təmin edə bilirlərmi ki, hələ üstəlik köç edənlərin də təminatı üçün fikirləşsinlər? Yaxud Ermənistanda işsizlik problemi ilə üz-üzə olanlar azdır ki, indi oraya üz tutanlar üçün də yer qalsın? Belə məlum olar ki, hələ daha çətin vəziyyət qarşıdadır və Ermənistan bunun qarşısında necə dayanacağı barədə əməlli-başlı düşünməlidir.

Kimdir günahkar və niyə belə bir hal yaranıb? Bir zamanlar işğal etdikləri torpaqlara erməni əsilliləri dolduranlar hansı ağılla bunu edirdilər? "Özgə atına minən tez düşər" zərb məsəlində olduğu kimi, ermənilər indi əraziləri tərk etmək məcburiyyətindədirlər və başqa çarələri yoxdur, amma onları həmin ərazilərə, daha dəqiq desək, bizim ərazilərimizə yerləşdirənlər vaxtında bunu anlamalı idilər. Anlamalı idilər ki, bu torpaqlar onlara məxsus olmayıb və olmayacaq da. Deməli, nə vaxtsa, gec-tez həmin əraziləri tərk etməli idilər. Tərk edəcəkləri təqdirdə harda məskunlaşdırılacaqları barədə düşünülmüşdümü? Heç şübhəsiz ki, düşünülməmişdi. Çünki özlərini ağıllı kimi göstərmək istəsələr də, bu qədər sadə həqiqəti anlaya bilməyiblər və indi bunun acısını çəkməlidirlər.

***İnam Hacıyev***

## Bağdasaryan: İşğal edilmiş ərazilərin məskunlaşdırılması "pul yumaq"dan başqa bir şey deyildi

**Bu gün söhbət Ermənistanın taleyindən gedirsə, yüz Qarabağ da olsa, ondan imtina etməliyik. Onsuz da Qarabağın taleyi həll olunub və Azərbaycan öz məqsədinə addım-addım yaxınlaşır. AZƏRTAC xəbər verir ki, bu sözləri erməni dilində yayımlanan "Kinolenta 24" internet televiziyasının təşkil etdiyi telekörpünün iştirakçılarından biri, İrəvan sakini Meri deyib.**

Ağlı kəsəndən "Dağlıq Qarabağ" ətrafında gedən rəsmi erməni təbliğatı ilə razılaşmadığını bildirən Meri öz arqumentlərini bu cür əsaslandırır: "34 ildir "Qarabağ bizimdir" deyənlərə mənim bir cavabım olub. Danışanda "dünya da bizimdir" deyirsiniz, lakin bir həqiqətlə razılaşmaq istəmirsiniz ki, hüquqi cəhətdən sənin olmayan nəyəsə sahiblənmək istəyinizi dünya qəbul edə bilməz".




Meri qeyd edib ki, "özünün olmayan torpaqlara görə kifayət qədər qurbanlar vermiş" Ermənistan dövlətinin taleyinə hisslərlə yanaşmaq gələcək qarşısında ən böyük və bağışlanılmaz səhv olar.

Telekörpünün digər iştirakçısı, niderlandlı Nuneyə son zamanlar erməni təbliğat maşınının beynəlxalq ictimaiyyəti manipulyasiya etmək məqsədilə yayılan dezinformasiya barədə məlumat verilir. Telekanalın yaradıcısı Roman Bağdasaryan Laçın, Zabux və Sus ətrafında aparılan söhbətin düzgün təqdim olunmadığını etiraf edərək deyib: "Həmin məsələ 10 noyabr Bəyanatına xüsusi bənd kimi salınıb və Azərbaycan öz üzərinə düşən öhdəliyi yerinə yetirsə də Ermənistan hələ işə başlamayıb. Bu, Azərbaycan tərəfinin hüququdur ki, ona aid ərazidə məskunlaşdırılan ailələrin köçürülməsini tələb etsin".

Vaxtilə Laçın və işğal altındakı digər yaşayış məntəqələrinin məskunlaşdırılmasının Ermənistandakı Qarabağ klanının varlanmaq istəyindən irəli gəldiyini deyən R.Bağdasaryan bu prosesin zərurətdən deyil, çirkli pulları yumaq üçün "ən yaxşı vasitə" olduğunu xatırladıb.

Sözügedən telekörpü həqiqətə işıq salmaqla bərabər, onu da göstərir ki, təkcə Ermənistanda yox, harada yaşamasından asılı olmayaraq, "günəş altında yer axtaran" ermənilər arasında öz ərazi bütövlüyünü təmin etmiş Azərbaycanın haqq işini başa düşənlərin sayı artmaqdadır.

# Sağlam gənclik, sağlam gələcək deməkdir!



Tükənməz gücə və böyük istedada malik olan Azərbaycan gəncliyi Vətənimizin işıqlı sabahıdır. Əlbəttə ki, müasir gəncliyin yüksək dünyagörüşlü, vətənpərvər ruhlu, savadlı olması vacib məsələlərdəndir. Cəmiyyətin aparıcı təbəqəsi olan gənclər fiziki və mənəvi cəhətdən sağlam, dünyada gedən prosesləri qavrayan, müasir texnologiyalarla işləməyi bacaran, milli-mənəvi dəyərlərə malik gənclikdir. Ölkəmizdə gənclərin potensialının düzgün istiqamətlənməsinə yönələn tədbirlər dövlətin uzaqgörən siyasətinin göstəricisidir ki, dövlət gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, kreativ gəncliyin formalaşmasına geniş imkanlar açıb. Bu gün Azərbaycan gəncliyi ölkənin ictimai-siyasi, həmçinin sosial-iqtisadi və digər sferalarında aktiv fəaliyyət göstərir, intellektual imkanları və yaradıcılığı ilə dövlətçiliyimizin möhkəmləndirilməsi işinə öz töhfəsini verir. Vətənimizi uğurlu gələcəyə aparmaq üçün böyük qüvvəyə çevrilən gənclik bütün dünya gəncləri kimi, 12 avqust - Beynəlxalq Gənclər Gününü qeyd edirlər. 1998-ci il avqustun 8-dən 12-dək Lissabonda gənclərlə iş üzrə nazirlərin iştirakı ilə keçirilən beynəxalq konfransda hər il avqustun 12-nin dünyada Gənclər Günü kimi qeyd olunması qərara alınmışdır. Bu əlamətdar gün gənclərə lazımi diqqət göstərmək, onların nailiyyətlərini təbliğ etmək, cəmiyyətin bütün sahələrində gənclərin iştirakına təkan vermək məqsədi ilə qeyd olunur.

### ”HƏR BİR XALQIN, HƏR BİR MİLLƏTİN, HƏR BİR ÖLKƏNİN GƏNCLƏRİ ONUN HƏM BU GÜNÜDÜR, HƏM DƏ SABAHIDIR, ÜMİDİDİR”

Bizim gənclik xoşbəxt gənclikdir ki, bu günü Zəfər çalmış xalqın gənc nümayəndəsi kimi qeyd edir. 44 günlük Vətən müharibəsində 30 ilə yaxın işğal altında olan olan torpaqlarımızın azad olunmasında Müzəffər Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi və komandanlığı altında əldə olunan tarixi qələbəmizdə Azərbaycan gəncliyi öz rəşadətini, birliyini, vətənpərvərliyini göstərmiş oldu. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, rəşadətli və şanlı Azərbaycan Ordusunun Tarixi Zəfəri gənclərimizin bitib-tükənməz vətənpərvərliyini, müasir dövrdə vətənimizə, dövlətimizə və xalqımıza layiq olan gözəl, dəyərli bir nəslin formalaşdığını bütün dünyaya nümayiş etdirdi. Ömrünün əsas hissəsini xalqa xidmətdə keçirən Ulu Öndər Heydər Əliyev kimi bir Şəxsiyyət Azərbaycanın sabahını gənclərin fəaliyyətində, inkişafında görürdü və ölkəni inkişaf etmiş dünya dövlətləri sırasına çıxması üçün mütləq gəncliyin enerjisindən, yaradıcılıq əzmindən istifadə etməyi böyük uzaqgörənliklə tövsiyə edirdi. Hələ Ümummilli Lider Heydər Əliyev ötən əsrin 70-80-ci illərdə Azərbaycan gənclərinin cəmiyyətin inkişafında rolunu artırmaq, ölkənin gələcək inkişafında iştirakını və məsuliyyətini yüksəltmək istiqamətində məqsədyönlü gənclər siyasətini həyata keçirirdi. Minlərlə gənc o illərdə güzəştli şərtlərlə Sovet İttifaqının ən mötəbər təhsil ocaqlarına göndərilirdi. Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi sovet dövründə yüzlərlə yeni təhsil ocaqları, gənclik mərkəzləri, hərbi məktəblər açıldı, minlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil alaraq, müasir ixtisaslara yiyələndi. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və qayğısı sayəsində o zamanlar Sovetlər İttifaqının 50-dən artıq iri şəhərinin 170 nüfuzlu ali məktəbində bütövlükdə 80-dək sahəni əhatə edən 150 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gəncin ali təhsil almasına, yüksək ixtisaslı mütəxəssis kimi hazırlanmasına imkan və şərait yaradıldı. Ulu Öndər çıxışlarının birində bildirmişdi ki, bütün bunların hamısı o vaxtlar Azərbaycanın gələcəyi üçün yeni-yeni mütəxəssislər hazırlamaq məqsədi daşımışdır: ”Bu işə biz hələ 70-ci ildən başlamışdıq. Mən bu gün çox məmnuniyyət hissi ilə qeyd edirəm ki, bu, şəxsən mənim təşəbbüsümlə olmuşdur. Mən hələ o vaxtdan ölkəmizin gələcəyini düşünürdüm”.

Qeyd etdiyimiz kimi, hələ sovet hakimiyyəti illərində Ümummilli Lider yüzlərlə Azərbaycan gəncini ittifaqın bir çox böyük və mərkəzi şəhərlərində təhsil almalarına şərait yaratmış və həmin şəxslərin böyük bir qismi müstəqil Azərbaycan Respublikasının dövlət quruculuğunda yaxından iştirak edirlər. Onu da qeyd edək ki, Azərbaycanda ötən əsrin 70-ci illərində hərbi məktəb yaradıldı. Naxçıvanski adına hərbi məktəbin yaranması bu gün Azərbaycanın nizami ordusunun güclənməsinə xidmət edir. Ümummilli Lider Heydər Əliyev tərəfindən ötən yüzilliyin 70-80-ci illərində qoyulmuş gənclər siyasətinin məntiqi davamı müstəqillik dövründə daha yüksək səviyyədə özünü göstərdi. Belə ki, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün qorunması, ölkədə hüquqi-demokratik dövlət quruculuğu prosesində gənclərin rolunun müstəsnalığı nəzərə alınaraq, vahid gənclər siyasəti hazırlanıb həyata keçirildi. Ulu Öndər Heydər Əliyevin ”Hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun həm bu günüdür, həm də sabahıdır, ümididir” fikri gəncləri Azərbaycanın uğurlu gələcəyi naminə səfərbər edir.

Ölkədə demokratik prosesin sürətlənməsi ərəfəsində gənclərin təşkilatlanması məqsədi ilə dövlət başçısı tərəfindən 1994-cü il 26 iyul tarixində Gənclər və İdman Nazirliyinin yaradılması barədə Fərman imzalandı. Bununla da dövlətin gənclərlə bağlı siyasəti vahid mərkəzdən idarə olunmağa başladı. Ulu Öndərin gənclərlə çoxsaylı görüşü, onlara etdiyi dəyərli tövsiyələr gənclərin ümummilli maraqlar və dövlət mənafeyi ətrafında birləşmələrinə xidmət edirdi. Hələ 1995-ci ildə Ümummilli Lider Heydər Əliyev tərəfindən Azərbaycan Gənclərinin Forumunun keçirilməsi təşəbbüsü irəli sürüldü. 2 fevral - Azərbaycan Gəncləri Günü elan edildi. 1999-cu ildə Ulu Öndər Heydər Əliyev tərəfindən imzalanan ”Dövlət Gənclər Siyasəti haqqında” Fərman gənclərin təhsili, tərbiyəsi, sağlamlığı, intellektual və mənəvi inkişafı, asudə vaxtın təşkili problemlərinin həlli, hüquqların müdafiəsi, respublikanın ictimai-siyasi və mədəni həyatında iştirakı ilə bağlı məsələləri əhatə etmiş oldu. 1996-2002-ci illərdə qəbul olunmuş ”Bədən tərbiyəsi və idman haqqında”, ”Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında”, ”Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında”, ”Dövlət gənclər siyasəti haqqında” qərarların, habelə, ”Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi haqqında”, ”Ordudan tərxis olunmuş gənclərin məşğulluğu” kimi dövlət sənədləri bu baxımdan təqdirəlayiqdir. Əlbəttə ki, gəncliyə göstərilən dövlət qayğısı, onlarla bağlı qəbul edilən qərarlar gənc nəslin xoşbəxt gələcəyinə hesablanan addımlar idi. Fərəh hissi ilə deyə bilərik ki, bu gün də dövlətimiz gənclərə xüsusi diqqət və qayğı göstərir. Ümummilli Lider Heydər Əliyevin gənclər siyasəti dövlət başçısı Cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir.

### ”HƏR BİR İNSANIN GÜCÜ, ƏLBƏTTƏ Kİ, ONUN BİLİYİNDƏN ASILIDIR”

Gənclərin cəmiyyət həyatında fəal iştirakını təmin etmək məqsədilə dövlət tərəfindən həyata keçirilən tədbirlər öz nəticəsini verir. Belə ki, cəmiyyətdə yüksək intellektə malik olan, geniş dünyagörüşlü və innovasiyalara maraq göstərən gənclər nəsli formalaşıb. İstedadlı gənclər aşkar edilir, onların öz qabiliyyətlərini inkişaf etdirə bilmələri üçün respublikada mövcud şərait yaradılıb.

Dövlət başçısının gənclərin xaricdə təhsil almalarına dəstək verən ”2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil üzrə Dövlət Proqramı” bütün təbəqədən olan gənclərin xaricdə təhsilinə geniş imkanlar açmış oldu. Dövlət Proqramı çərçivəsində gənclərə dünyanın 33 ölkəsinin 544 ali təhsil müəssisəsində təhsil almaq imkanı verildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışlarının birində Azərbaycan gəncliyinin savadına, bacarığına, gələcəyinə böyük inam ifadə edərək bildirib ki, hər bir insanın gücü, əlbəttə ki, onun biliyindən asılıdır: ”Ona görə Mən əminəm, gənclərimiz bunu yaxşı başa düşürlər ki, yaxşı bilik almaq, yaxşı savad almaq və istənilən sahədə peşəkar olmaq hər bir gəncin, hər bir insanın həyatda yaxşı yer tutmasına gətirib çıxaracaqdır”.

Gənclərə olan diqqət və gənclər siyasətinin, davamı olaraq, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ”2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası”nın təsdiq edilməsi gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etməkdə növbəti bir addım oldu. Ölkə başçısının ”Azərbaycan gəncliyi 2017-2021-ci illərdə” Dövlət Proqramı haqqında Sərəncamı isə Azərbaycanda gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə nail olmaq, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək, gənc nəslin sağlamlığını qorumaq, gənclərin təhsil və məşğulluq məsələlərinə diqqəti artırmaq kimi məqsədi daşıyır.

### MİLLİ VƏTƏNPƏRVƏRLİK AZƏRBAYCANIN HƏR BİR VƏTƏNDAŞININ, HƏR BİR GƏNCİNİN HƏYAT PRİNSİPİDİR

Azərbaycan gənclərinin xarici ölkələrdə təşkilatlanmaları da uğurla gedir. Bu gün gənclərimiz Avropa və dünyanın otuzdan çox nüfuzlu beynəlxalq gənclər təşkilatında təmsil olunur və bununla da, beynəlxalq gənclər hərəkatının fəal tərkib hissəsinə çevrilib. Bu təşkilatların istər Azərbaycanda, istər ölkədən kənarda keçirdiyi tədbirlər Azərbaycan həqiqətlərinin bütün dünyaya çatdırılmasında mühüm rol oynayır. Azərbaycan reallıqlarını dünyaya çatdıran, onun həqiqətlərinə göz yuman insanlara reallıqları təqdim edən, məhz elə gənclərdir. Gənc idmançılarımızın qələbələrini, gənc siyasətçilərimizin uğurlarını, gənc əsgərlərimizin qəhrəmancasına Vətən qarşısında xidmətlərini və digər sahələri də vurğulamaq yerinə düşər. Bir sıra müsabiqələrdə, yarışlarda Azərbaycan gənclərinin Avropa məkanını fəth etməsi, birincilik qazanaraq, Azərbaycan bayrağını dalğalandırması Azərbaycan gəncliyinin sağlam düşüncəsinin məntiqidir. Azərbaycan gəncliyi sürətli inkişafa meyllidir. Bu reallıqların əsasında dayanan dövlətin gənclər siyasəti, onlara maddi və mənəvi cəhətdən göstərdiyi qayğıdır. Azərbaycanın durmadan inkişafı, dünya dövlətlərinə inteqrasiya prosesinin sürətlənməsi, iqtisadi yüksəliş kimi nailiyyətlər gəncliyin qarşısında prespektivlər açmaqla yanaşı, onları stimullaşdırır. Bu gün milli vətənpərvərlik Azərbaycanın hər bir vətəndaşının, hər bir gəncinin həyatının əsas prinsipidir. Azərbaycanda geniş vüsət almış könüllülər hərəkatının aparıcı gücü məhz gənclərdir. Gənclərimizin potensialının, fəallığının, məsələlərə yeni baxışlarının cəmiyyət üçün çox lazımlı olduğunu diqqətə alan Prezident İlham Əliyev 2019-cu il dekabrın 30-da Azərbaycan Respublikasında 2020-ci ilin ”Könüllülər ili” elan edilməsi haqqında Sərəncam imzaladı. Ölkəmizdə təxminən 20 min gənc könüllü olaraq çalışmış və indi onlar ayrı-ayrı təşkilatlarda müxtəlif vəzifələrdə işləyirlər. Könüllülər hərəkatının cəmiyyətin inkişafında xüsusi əhəmiyyəti var. Bu, cəmiyyətdə xeyirxahlıq, yeni davranış qaydalarını təbliğ edir. Könüllülər hərəkatı ”ASAN xidmət”dən başladı və bu gün ”ASAN xidmət”də işləyənlərin mütləq əksəriyyəti gənclərdir. Azərbaycanın mədəniyyət paytaxtı Şuşaya diasporumuzun gəncləri toplaşdı və Diaspor Gənclərinin III Yay Düşərgəsi keçirildi. Qarabağın incisi olan bu torpaqda bir-birinin ardınca əlamətdar hadisələrin təşkili Şuşanın tarixi yaddaşına həkk edilir. Dünyanın əlli ölkəsindən 115 gəncin qatıldığı Diaspor Gənclərinin III Yay Düşərgəsi dünyanın müxtəlif qitələrinə səpələnmiş gənclərin qədim torpağımızda bir araya gələrək Şuşa ilə tanışlığında böyük əhəmiyyət kəsb edir. Bütün bu uğur və nailiyyətlərin əsasında Azərbaycan gənclərinə yaradılan şərait dayanır. Bu gün həyata keçirilən siyasət, uğurlu iqtisadi islahatlar və iqtisadiyyatın inkişaf tempi müasir gənclərin düşüncələrinin formalaşmasına birbaşa təsirini göstərir.

Beləliklə, Azərbaycanda gəncliyə dövlət qayğısı sabaha və uğurlara hesablanan bir siyasətdir, bu siyasət sağlam və intellektual nəslin formalaşmasına xidmət edir. Bütün bunlar isə, Azərbaycan gəncliyinin sabahına daha böyük inamla baxmağa əsas verir. Bu uğurların təməlində isə əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasəti dayanır. Qürurlu haldır ki, xalqımızın qəhrəmanlıq tarixini yazanlar da onlardır. Qazanılan uğurlar, bir daha onu sübut edir ki, hər bir gənc ölkə qarşısında qoyulan böyük məqsədi və məsuliyyəti dərk edir. 44 günlük Vətən müharibəsində gənclərimiz vətənpərvərlik nümayiş etdirdilər. Yüksək milli ruhlu gənclərimiz Ali Baş Komandanın əmri ilə torpaqlarımızı işğaldan azad etdi. 30 illik həsrətə son qoyuldu. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, ”Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib”.

**ZÜMRÜD BAYRAMOVA**

**2000-ci illərdən bəri ümumi təhsil pilləsində şagirdlərə dərsliklər pulsuz verilir. Və o zamandan dərsliklərlə bağlı problemlər səngimək bilmir. Baxmayaraq ki, hal-hazırda da bu problem qalmaqdadır, istər ibtidai siniflər, istərsə də V-XI siniflərin dərsliklərində elmi və texniki səhvlər bitib tükənmir.**

# Dərsliklərlə bağlı qarşılaşdığımız əsas problemlər hansılardır?




Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 fevral tarixli 67 nömrəli Qərarı ilə "Ümumi təhsil müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin hazırlanması qaydası" təsdiq edilmişdir. Məlum Qayda "Ümumi təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 4.0.12-ci maddəsinə uyğun olaraq hazırlanmış və ümumi təhsil müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin hazırlanması, təsdiqlənməsi və nəşri qaydasını müəyyən edilmişdir. Və həmin qaydanın 2.2-ci bəndində ümumi təhsil müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin tərtibi zamanı aşağıdakı ümumi tələblər nəzərə alınması tələbi qoyulub :

1. materialların elmi etibarlılığı, dəqiqliyi, inkişafyönümlülüyü, dəyəryönümlülüyü, tərbiyəyönümlülüyü, şagirdlərin yaş xüsusiyyətlərinə uyğunluğu;
2. pedaqoji və metodiki yanaşmaların qabaqcıl nəzəriyyələrə uyğunluğu;
3. dizayn və tərtibatın məntiqliyi, estetikliyi və müasirliyi;
4. Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğunluğu.

Sonda Prezidentin 13 №-li Sərəncamı ilə təsdiq olunmuş olunmuş " Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyasının" 7-ci bölməsinin 4.1.-ci bəndində ümumi orta təhsil səviyyəsində hər bir şagirdin elektron dərsliklərlə yüklənmiş kompüter-planşetlə təmin olunması 2015-2020-ci illər üçün nəzərdə tutulmuşdu. Nəinki texniki vasitələr, hazırda istifadə olunan dərsliklər belə tələblərə cavab vermir.

Dərsliklər yazılarkən şagirdlərin yaş səviyyəsi nəzərə alınmır, çətin, məntiqsiz, uyğunsuz cümlələrdən istifadə olunur ki, bu onlarda qavrama çətinliyi yaradır. Hətta valideynlər də övladlarına dərsi izah etməkdə çətinlik çəkirlər. Dərsliklərdəki mövcud çatışmazlıqlar valideynləri də narahat edir. Valideynlər deyir ki, dərsliklər o qədər mürəkkəb və anlaşılmayan dildə yazılıb ki, uşaqlar kitabda verilən mətnləri oxuyub başa düşmürlər.

Dərsliklərin çətinləşməsi repetitorlara üz tutmağa imkan yaradır. Bu qəsdən edilir sanki. Orta ümumtəhsil müəssisələrində şagird dərsləri mənimsəyə bilmir və əlavə hazırlığa gedir. 10-15 il əvvəl təhsil bazarında şagirdin ev tapşırıqlarını həll etmək üçün müəllim yanına getməsi halı yox idi, indi bazarda buna tələbat çoxdur. Bu da onu deməyə əsas verir ki, birbaşa dərsliklərin və tapşırıqların çətinləşdirilməsi məhz əlavə məşğələlərə, müəllim yanına getmələrə imkan yaradır. Halbuki orta məktəblərdə təhsilin göstəricisinin nə qədər aşağı olması bu faktla üzə çıxır.

**Təhsil məsələləri üzrə mütəxəssis Elvin Bədirov** SİA-ya açıqlamasında dərsliklərlə bağlı yaşanan problemlərdən danışıb: "Son dövrlərdə təhsilin inkişafı üçün bir sıra zəruri addımlar atılsa da , kompleks tədbirlərin keçirilməməsi həm effektivliyi aşağı salır, həm də inkişaf prosesinin davamlılığına mane olur.

Regionlar üzrə qruplaşdırsaq Bakı , Abşeron, Sumqayıt istisna digər bölgələrin



problemləri sırasında ən vacib amil yüksək ixtisaslı müəllimlərin azlığı, bəzən isə ümumiyyətlə müəyyən fənlər üzrə müəllimlərin olmamasıdır. Eyni zamanda infrastruktur problemi də təhsilə ciddi əngəl törədir.

Bakı, Sumqayıt və Abşeron məktəbləri isə bu baxımdan daha yaxşıdır. Lakin son illərdə təqdim edilən vakansiya azlığı gənc və savadlı müəllimlərin məktəblərə yol tapmasına çətinliklər yaradır. Ən ciddi problem isə etimad mühitinin olmamasıdır. Valideynlər və şagirdlər məktəbdə yaxşı təhsil alacağına inanmır. Məktəblər rəqabətdə repetitorlara uduzur.

Dərsliklərlə bağlı qayda belədir ki, hər 4 ildən bir hər sinif üzrə dərsliklər yenilənməlidir. Bu addım doğru addımdır, köhnə dərsliklərlə müqayisədə tətbiq edilən yeni dərsliklər daha yaxşıdır. Lakin bunu bütün fənlərə və siniflərə aid etmək olmur. Bəzən dərsliklərin dili, üslubu daha çətin anlaşılan olur. Bu işdə həm dərslik müəlliflərinin, həm də onları qəbul edən komissiyanın ciddi günahı var. Sifarişçi qismində nəşriyyatlar çıxış edir, tenderi qazanır və onların qəbul alan nəşrləri isə müəllif qüsurları səbəbindən səhvlərlə birgə məktəbələrə yol tapır. Əziyyətini isə şagirdlər çəkir. Bunun həll yolu dərsliklərin şagirdlərin yaş psixologiyası, anlama bacarığı nəzərə alınmaqla mövcud kurikulum əsasında işlənməlidir. Biz bu çətinliyi xüsusi ilə ibtidai siniflərin riyaziyyatında aşkar görürük. Nəzərə alaq ki siniflərdə şagirdlərin sayı çoxdur, valideyn məcbur qalır ki övladını əlavə müəllim yanına göndərir, dərsdən yayınma halı artır və məktəbin nüfuzuna xələl gəlir.

5-11-ci siniflərdə isə Azərbaycan dili və Ədəbiyyatı, Tarix , Coğrafiya fənlərində ciddi nöqsanlar var".

Kurikulum sisteminin çatışmazlığı isə daha çox kitablarımızın uyğunsuzluğu, kurikulum standartlarına cavab verməməsi, məktəblərdə dərslərin əsasən ənənəvi qaydada davam etməsi, müəllimlərimizin kurikulum sisteminə uyğunlaşa bilməməsi, müəllimlərin adaptasiya olunmasına zəruri effektiv dəstəyin olmamasıdır.

Problemlərin həllində hər kəsə öhdəlik düşür, lakin daha çox rol rəhbər qurumun, işləri tənzimləyən orqanın üzərinə düşür.

Bir çox valideynlər və müəllimlər də də vardır ki, hər dəfə yenilənən dərs vəsaitlərindən şikayətlənirlər.

**Gəncə şəhər 10 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi Ələkbərzadə Günay** isə qeyd edir, insanlar, o cümlədən, bizim cəmiyyət yeniliklərə, dəyişikliklərə açıq deyildir. Lakin biz texnologiyanın gündən-günə inkişaf etdiyi bir dövrdə



yaşayırıq. İnkişaf hər sahədə özünü göstərir, o cümlədən təhsil sahəsinə də bu inkişafın xüsusilə təsir etməsi önəmli faktordur. Və yeniliklərlə razılaşmayan insanlar hər zaman-bu onların xeyirlərinə belə olsa, şikayətlənəcəklər ki, bu hər dövrdə belə olub. Problem ondadır ki, istər valideynlər, istər bəzi müəllimlər bu yenilikləri öyrənib tətbiq etməkdənsə, ən rahat yolu seçirlər. İnanın ki, öz üzərində çalışan müəllim heç vaxt heç nədən şikayətlənməz. Tələbəlik illərindən bir xatirəni yeri gəlmişkən, paylaşmaq istərdim. Mən Azərbaycan Dövlət Pedaqoji Universitetini bitirmişəm. Təxminən 2006-2007-ci illərdə biz Bakı məktəblərinin birinə pedaqoji təcrübə üçün getmişdik. Hər gün bir neçə tələbə sınaq dərsi verir, ən sonda pedaqoji təcrübəyə rəhbərlik edən müəllimimizlə birlikdə nəticəni müzakirə edərdik. Müzakirədə bizə istiqaməti Azərbaycan yazıçısı Zahid Xəlilin (dekanımız) qızı Azərbaycan dili və tədrisi metodikası kafedrasının dosenti Şəlalə Nəbiyeva verirdi. Onun bir qiymətli fikri mənə müəllim kimi yeniliklərə köklənməkdə həyat şüarına çevrildi. O demişdi ki, "Hər dövrün düşüncə tərzi, qavraması fərqli olur. Bizim zamanımızda keçilən dərslərin metodları, iş üsulları indiki dövrün uşaqları üçün maraqsızdır, vaxt gələcək, sizin dərs deyəcəyiniz şagirdlərin diqqətini dərsə cəmləmək üçün bundan da fərqli metodlara, daha əyləncəli iş üsullarına ehtiyac duyacaqsınız.". Və həqiqətən də Şəlalə m.nin bu fikri günümüzün reallığıdır.

Dərsliklər bir neçə ildən bir təkmilləşir. Son dərsliklər bir öncəki dərsliklərdən daha yaxşıdır, deyərdim. Problem olaraq mənim müşahidə etdiyim məqam ondan ibarətdir ki, Azərbaycan dili dərsliyində, bir sıra mətnlərdə tələffüzü ibtidai sinfin 1-2-ci sinif şagirdlərinə çətin gələn xüsusi isimlər verilmişdir ki, onları şagirdlər tələffüz etməkdə çətinlik çəkir, hafizələrində saxlaya bilmirlər. Qalan digər hallar baxımından son dərsliklər (mənim ixtisasıma aid olanlar) bütün məzmun xətlərini əhatə edir.

Kurikulum sistemi əslində şagirdlərin bütün bacarıqlarını əhatə edən proqramdır. Bir proqram ki, müəllimə deyir ki, şagirdlərin öyrənmə müxtəlifliyi var- kimi dinləyərək, kimi vizual, kimi kinestetik öyrənir- müəllim, sən bunları bil və dərsini bu şəkildə qur və bununla bağlı metodik vəsaitlərdə, internet resurslarında kifayət qədər öyrədici məlumatlar vardır. Əgər dərs hörmətli müəllimlərimiz tərəfindən düzgün tətbiq olunarsa, həmin dərs şagirdlər üçün kifayət qədər öyrədici və maraqlı olar. Çətin heç nə yoxdur, öyrənmək istəmədiyi üçün qəbul etməyən insanlar vardır. Cəmiyyət müəllim etalonu üzərində qurulur. Müəllim öz işini tələblərə uyğun məsuliyyətlə, əzmlə yerinə yetirərsə, valideynlərə düzgün istiqamət verib, maarifləndirərsə, inanıram ki, yaxın gələcəkdə bu kimi problemlər öz həllini tapacaqdır.

Heç də təsadüfi deyil ki, dərsliklərdə olan nöqsanlarla bağlı istənilən irad və qarşılıqlı ittihamlar reallığa söykənsə belə cəmiyyət üçün narahatçılıq doğuran hal olaraq qalır. Bu gün də məktəblərin təhsilin məzmun göstəricisini və inkişaf səviyyəsini əks etdirən tədris ədəbiyyatları ilə: proqram, kurikulum, dərslik, dərs vəsaiti və digər tədris metodik ədəbiyyatlarla fasiləsiz və ahəngdar təminat ən ciddi problemlərdən biri kimi dövlətin diqqət mərkəzindədir.

**Bu sözləri Təhsil eksperti Nadir İsrafilov** deyib.

Əlbəttə, təhsilə verilən yeni tələblər



"Qaydalar"ın da davamlı olaraq təkmilləşməsi və yeniləşməsi zərurəti yaradacaq, dərslikdə nəzərdə tutulan pedaqoji və metodiki yanaşmaların qabaqcıl nəzəriyyələrə uyğunluğu, dizayn və tərtibatın məntiqliyi, estetikliyi və müasirliyi kimi meyarlar əsas götürüləcək. Bu məqsədlə Layihə çərçivəsində I-IV sinif "Həyat bilgisi" fənni üzrə təhsil proqramındakı təbiət elmlərinə dair məzmun standartları yenilənir, yeni V sinif "Təbiət" fənni üzrə məzmun standartları yazılır. V sinif "Təbiət" fənni üzrə dərslik konsepsiyası və bu konsepsiya əsasında yeni dərslik komplekti hazırlanır. Nəticədə dövrün reallıqlarına cavab verməyən tədris vəsaitləri və resurlar tədricən yenilənəcək.

***Havar Şəfiyava***

TƏHLİL + YANAŞMA

# Kələğayı başımıza örtük, ağzımıza yaşmaq idi...



**Geyimlər hər bir xalqın tarixini, qədim mədəniyyət və sənətkarlıq nümunələrini özündə ehtiva edir. Geyim özündə məxsus olduğu xalqa bağlı bir çox xüsusiyyətləri birləşdirir, sanki insanların xarakterini açır, zövqünü müəyyənləşdirir. Azərbaycan xalqı da özünəməxsus, zəngin və çeşidli geyimləri ilə zamanında sözünü demiş, həmçinin bu geyimlərlə dünya xalqlarının nümayəndələrinin də zövqünü oxşamışdır.**

Belə geyimlərimizdən biri də baş örtüyü olan kələğayıdır. Əsrlərin o üzündən günümüzədək gəlib çıxan bu geyim gözəlliyi, zərifliyi ilə bu gün də göz oxşayır. Ölkəmizdə qədim ipəkçilik sənətinin bütün gözəlliyi və məharətini özündə ehtiva edən kələğayını bir sənət əsəri adlandırmaq olar. Bu gün də istehsal olunan, qadınların sevə-sevə istifadə etdiyi bu baş örtüyü qədimdən müasir dövrümüzə gəlib çıxan yeganə geyimdir.

Avqustun 12-də dövlətimizin başçısı cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın İsmayıllı rayonuna səfərləri çərçivəsində kələğayının "vətəni" Basqalda olmaları və buradakı kələğayı emalatxanasında Mehriban xanım Əliyevanın kələğayıya naxış vurması bu qədim geyim növünün tarixini gözlər önünə gətirdi.

## Kələğayı bu gün də istifadə olunan yeganə qədim geyimdir

Bəli, qədim zamanlarda çeşidli qadın və kişi geyimlərimiz olsa da, onlar zaman-zaman tarixin o üzündə qalmış, günümüzədək gəlib çıxa bilməmişlər. Bunun isə müəyyən səbəbləri var. Bu səbəblərdən biri də müxtəlif sosial-iqtisadi formasiyalardır. O formasiya ki, bizim xalq da 1918-ci ildə əldə etdiyimiz müstəqilliyin 23 aylıq taleyindən sonra həmin formasiyanın qurbanı oldu, sovet ittifaqının buxovunda əzilməyə başladı. Bu 70 illik əsarət illəri bütün sahələrdə müəyyən dəyişikliklərə səbəb oldu. Eləcə də geyimlərimizdə də bunu his etdik. Müəyyən dəyişiklik deyirəm, ona görə ki, sovetin qolu nə qədər güclü olsa da, adət-ənənələrimizi qoruyub saxlaya bilirdik. Gizli şəkildə də olsa, bunu bacarırdıq. Məsələn, elə bayramlarımız, mərasimlərimiz vardı ki, onları həmin dövrdə açıq şəkildə keçirə bilmirdik, lakin gizli şəkildə onu yaşadıb 90-cı illərə-müstəqilliyimizin bərpası illərinə gətirib çıxara bilmişdik.

Bəli, baxmayaraq ki, 1920-ci ildə Azərbaycanda sovet hakimiyyəti qurulmuşdu, hələ 80-90-cı illərdə kəndlərimizdə nənələrimiz qədim geyimlərimizin bir qədər müasir formasından istifadə edirdilər. Bunu o dövrün gəncləri olan bizlər görmüşdük. Yadımdadır, nənələrimiz o zamanlar taxtalı deyilən, yeni çox qatlamalı, uzun ətəklər geyinirdilər. Üzərində də eynilə qədimdə qadınların geyindiyi bir qədər geniş köynəklər, üstündən də qolsuz jilet formalı geyim. Qədim geyimlərlə bunların fərqi yalnız bəzəklərində idi. Qədimdə bu geyimlərin parçası ipəkdən, daha bərbəzəkli olardı, 80-90-cı illərdə isə həmin geyimlər istənilən parça növündən tikilirdi, bəzək isə vurulmurdu. Bu geyimləri o dövrlərin nənələri geyinirdi. O nənələr ki, bu geyimlərin ömrü onlar dünyasını dəyişənədək oldu. Həmin qadınlarla birlikdə bu geyimlər də birdəfəlik gömüldü.

Böyük bir tarixi özündə əks etdirən kələğayılarımız XIX əsrin ortalarından başlayaraq, Paris, London, Sankt-Peterburq, Moskva, Tiflis və digər beynəlxalq sərgilərin yüksək mükafatlarına layiq görülüb. Kələğayı sənəti 2014-cü ildə "Kələğayı simvolizmi və ənənəvi sənəti" adı ilə UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir. Kələğayının xalqımızın digər sərvətləri-muğam, aşıq, tar ifaçılıq sənəti, Novruz bayramı və xalçaçılıqla bir sırada dayanması heç də təsadüfi deyil. Milli geyimlərimizin bir hissəsi olan kələğayı Azərbaycan qadınının ismət, ləyaqət simvolu, milli dəyərlərimizin daşıyıcısıdır.



Beləliklə, qədimdən bu günümüzə gəlib çıxan, bu gün də qadınlarımızın istifadə etdikləri bir geyim növü var, o, kələğayıdır. Bu gün qadınlarımız keçmişdə olduğu kimi, başıörtülü gəzməsələr də, kələğayılardan geyim aksesuarı-şərf kimi çox istifadə edirlər.

Müasir dövrdə bütün qızlara nişan mərasimində kələğayı aparılır. Al-əlvan kələğayılar xonçalarımızı bəzəyir. Nişan üzükləri barmaqlara taxılanda, kələğayılar da başlara salınır.

## Kələğayıdan tutulan yaşmaqlar...

Kələğayı həm də qadınlarımızın yaşmağı idi. Görəsən qadınlar ağız-burun hissələrini niyə örtürlər? Bu sualı vaxtilə dəfələrlə nənəmə vermişdim. Nənəm cavabında deyərdi ki, yaşmaq üzün "pərdəsidir", qadın yad kişilərə görünməz, onların yanında danışmaz, məcburən danışanda isə üzünün bir qismini örtər ki, tamamilə görünməsin. Mən isə ona yeni bir sual verərdim, ay nənə, bəs atam yad kişi deyil axı, sən onu görəndə niyə yaşmaqlanırsan? Nənəmsə mənim bu sualıma həmişə sadəcə təbəssüm edər, cavab verməzdi. Sonralar böyüdükcə dərk etdim ki, yaşmaq böyük bir ismətin, həyanın, abırın nişanəsi imiş. Yaşmaq əsrlərlə, qərinələrlə yalnız azərbaycanlı qadına məxsusluğun göstəricisi, onun bənzərsiz xarakterini açan başlıca amil, həqiqətən sözün belə ifadə etməyə gücü çatmadığı gözəl keyfiyyət imiş. Qadınlarımızın, qızlarımızın ismətinin yad kişilərdən, hətta qayınatadan, qayından, böyük qardaşdan, bəzən doğma övladlarından belə saxlanc yeri imiş. Elə gözümüzlə gördüklərimizdən və eşitdiklərimizdən bu qənaətə gəlmək olur ki, bəzi mənbələrdə yaşmaq sözünün mənasının yad kişilərdən qorunmaq kimi açıqlanması heç də bu sözün mahiyyətini tamamilə əhatə etməyib. Çünki qayınata, qayın, əmi-dayı oğlanları bizdə yad kişi hesab olunmayıb. Bəs qardaşından, oğlundan yaşmaqlanan qadınlarımız? Belə isə yaşmaq sözünü yad kişilərdən qorunmaqla yanaşı, həyadan, abırdan, utancaqlıqdan böyüklərdən, yaxın qohumlardan, hətta oğlundan üz gizlətmək kimi mənalarla da əlaqələndirmək daha düzgün olardı.

75 yaşlı Sədaqət nənə deyir ki, keçmişdə gəlin köçəndə başına kələğayı salardılar, üzü tamamilə örtülərdi. Sonralar indi istifadə olunan fata dəbə düşdü. Fata da əvvəllər qalın parçalardan hazırlanırdı, bir tərəfi ilə üz örtülürdü. Daha sonralar parça narikləşdirildi, üz göründü. Müasir gəlinlərimizin çoxu isə heç üzlərini örtmürlər. İndi müasir dövrdür, bunu hamı yaxşı bilir. Lakin bu o demək deyil ki, müasirləşdikcə özümüzdən uzaqlaşaq. Bizim elə bir keçmişimiz olub ki, çoxları bu həyat tərzinə qibtə ediblər. Gənc qızlarımız, gəlinlərimiz geyim-keçimlərinə fikir verməlidirlər.

Ağbirçək anamızın maraqlı söhbətini, dəyərli tövsiyəsini dinlədikcə düşünürəm ki, gəncliyimiz daim nəzarətimiz altında olmalıdır. Onlara bilmədiklərini biz analar öyrətməli, yaxşılarımızı onlara əxz etdirməliyik. Dünya, yaşadığımız cəmiyyət isə gündən-günə müasirləşir və hər birimiz də bilirik ki, bu müasirləşmə həyatımızdan yan keçmir, bəzi dəyişiklikləri bizim üçün qarşısıalınmaz edir. Ancaq onu da unutmaq olmaz ki, bir ömür üzünü halalından başqa kimsənin görmədiyi qadınlar, atadan, qayınatadan qardaşdan, yaxından, qohumdan yaşmaqlanan gəlinlər bizim nənələrimiz, analarımız olublar. Onlar bizə əslində üzü gizlətmək üçün yaşmaqlanmaq kimi davranışı deyil, ismət adlı həya nümunəsini yadigar qoyublar. Onu qorumaq isə hər bir azərbaycanlı qadının borcudur.

## Yada düşər Qazılıq dağı...

Yaşmaqdan söhbət düşəndə hər zaman "Dədə Qorqud" dastanındakı Qazılıq dağı da xatırlanır. Tarixi mənbələrdə göstərilir ki, Qazılıq dağı dedikdə, dastanlarda həm böyük Qafqaz, həm də Kiçik Qafqaz nəzərdə tutulur. Hətta çox vaxt qızlar və gəlinlər üzlərini o dağa çevirəndə, ağzına yaşmaq tutardılar. Və bu da qədim türklərdə dağ kultunun olması, dağa inancla bağlı hadisədir.

Hətta Avropa qaynaqlarında belə Qafqaza Qazılıq dağları deyiblər. Buradan belə bir qənaətə gəlmək olur ki, qafqazlı qadınların böyük, ata sanıb hörmət əlaməti olaraq o səmtə yaşmaqsız baxmamaları zaman-zaman onların gündəlik həyatlarına da sirayət edib, ata, qayınata və digər kişilərdən yaşmaqlanmalarına səbəb olub.

Bəli, artıq tarixin o üzündə qalan gözəl adət-ənənələrimiz var idi. Yuxarıda da qeyd etdiyim kimi, həmin adət-ənənələr 90-cı illərə qədər də yaşadılırdı. Bu gün də ölkəmizin kəndlərində yaşlı qadınlarımız arasında həmin geyimlərə bənzər geyim geyinənlər, hətta yaşmaq tutanlar da var.

Lakin etiraf etməliyik ki, geyimlərimiz bu gün tamamilə avropalaşıb. Qədim, milli geyimlərimizi indi tək bayram tədbirlərində, xınayaxdılarda görmək mümkündür, bir də muzeylərimizdə. İndi kəndli-şəhərli, xüsusilə gənclərimiz bu geyimlərdən çox uzaq geyimlərə üstünlük verirlər. Həmin ətəklərdən, köynəklərdən əsər-əlamət qalmayıb. Müasirlik bizi o həddə gətirib çıxarıb ki, ətəklərimiz daraldılıb dizdən neçə qarış yuxarıya, köynəklərimiz də eynilə qurşaqdan bir qarış yuxarıya qaldırılıb.

İndi bəzi qazlarımız var ki, nəinki yaşmaq sözünün leksik mənasını bilmir, hətta qayınatasının qarşısında qısa şortikdə, qolsuz köynəkdə gəzir, bundan əsla narahat olmurlar.

Düşünəndə gör zaman bizi Qazılıq dağından neçə yüz min kilometrlərlə ayrı salıb...

## Basqal Azərbaycanın ən böyük ipəkçilik mərkəzlərindən biri olub

Basqal qəsəbəsi nadir memarlığı, qədim ipəkçilik, dəmirçilik kimi xalq sənətkarlıq ənənələri və orta əsr şəhərsalma mədəniyyəti ilə Azərbaycanın mədəniyyət tarixində xüsusi əhəmiyyətə malikdir. Basqal tarixən Lahıc, Şəki, Qəbələ və Şamaxıdan gələn yolların kəsişməsində yerləşərək qovşaq funksiyasını, sosial-iqtisadi və ticarət mərkəzi rolunu oynayıb.

2003-cü ildən İsmayıllı rayonunun Basqal qəsəbəsində "Kəlağayı" İpək Mərkəzi fəaliyyət göstərir. Həmçinin Basqalda unikal interaktiv "Kəlağayı" muzeyi yaradılmışdır. Muzeyə gələn ziyarətçilər kəlağayının tarixi və ənənələri ilə tanış ola bilər, eləcə də sənətin yaranma prosesini canlı görüb, hətta məhsulun hazırlanmasında da iştirak edə bilərlər.

Şəki və Basqal kəlağayıları sırasında "Şah buta", "Saya buta", "Xırda buta" çeşnilərindən daha çox istifadə olunub. "Heyratı", "Soğanı", "İstiotu", "Albuxarı", "Abi", "Yeləni" adlı əlvan kəlağayılar Azərbaycanda böyük şöhrət qazanıb. Basqalda kəlağayılara bəzək vurmaq üçün istifadə edilən ornamental taxta qəliblər əsasən qoz və palıd ağaclarından hazırlanırdı. Basqallı Hacı Həmid Talıb oğlunun, Kərbəlayi Abdulxaliq Əşrəf oğlunun, həmçinin toxucu Ələbbas Cəbrayıl oğlunun adları XIX əsrdə yaşayıb yaratmış bəzəkvuran sənətkarların sırasında çəkilib.

Prezident cənab İlham Əliyevin və birinci xanın Mehriban Əliyevanın avqustun 12-də İsmayıllı rayonunda olarkən Basqal qəsəbəsində kəlağayı istehsalı emalatxanasında Mehriban xanımın istehsal olunan kəlağayıya naxış vurması ölkəmizdə bu qədim sənətkarlıq sahəsinin bu gün də yüksək şövqlə davam etdirilməsinin, qədim adət-ənənələrimizin müasir dövrdə yaşadılmasının göstəricisidir.

## İngilis xanımlarını heyran edən Azərbaycan kəlağayıları

Yazı üçün məlumat əldə etmək üçün bəzi mənbələrə baxarkən kəlağayı ilə bağlı maraqlı bir fakta rast gəldim. İstədim ki, onu oxucularla da paylaşım: 1862-ci ildə Azərbaycan ilk dəfə olaraq Londonda keçirilən ümumdünya sərgisində iştirak edib ki, o zaman basqallı toxucu Nəsir Abduləziz oğlu nümayiş etdirdiyi nəfis kəlağayı və zərif qanovuz parçaya görə gümüş medal və xüsusi diploma mükafatlandırılıb. Kəlağayı ustası Londondan qayıdanda demişdir: "İngilis xanımları macal vermədilər ki, camaat bir kəlağayıya tamaşa etsin. Bir anın içində yarmarkada keçirilən satış sərgisində hamısını aldılar. Qaldım mat-məttəl baxa-baxa. Gərək çox aparaydım. Allah qoysa, bu səfər çox apararam".

Bu maraqlı fakt Azərbaycan kəlağayısının füsnuna verilən qiyməti, heyranlığı təsdiqləyir. İngilis qadınlar onu baş örtüyü, yaxud şərf kimi istifadə etmək məqsədilə alırmışlar, bunu bilməsək də, əsas məsələ odur ki, kəlağayımız dünyanın ən inkişaf etmiş ölkəsinin qadınlarının bu qədər heyranlığına səbəb olub. Bu isə o deməkdir ki, kəlağayılarımız gözəldir, zərifdir, al-əlvandır, qadın zövqünü oxşayan və onları heyran edəndir.

Elə bu səbəbdən də dəfələrlə öz geyim kolleksiyasında kəlağayıdan istifadə edən modelyer Fəxriyyə Xələfovanın da fikirləri dəyərlidir. Modelyerin fikrincə, kütləvi istifadə üçün kəlağıyı mütləq müasirləşdirilməlidir, istehsala yeni kəlağayı nümunələri buraxılmalıdır.





Psixoloq Rəna İbrahimbəyova isə kəlağayının insan həyatını təsvir etdiyini iddia edir: "Kəlağayı naxışlarının müəyyən sistemi var və onu hazırlayan hər kəs o sistemə riayət etməlidir. Kəlağayının üzərindəki naxışlar kainatın və dünyanın quruluşunu təsvir edir. Örpəyin kənarındakı haşiyə dağ anlamındadır, bu insanları qoruyur. Ortadakı haşiyə isə o biri dünyanı təsvir edir və naxışlardan göründüyü kimi, o dünya indikindən daha rəngli və mürəkkəbdir".

Hər iki xanımın fikirlərini birləşdirməklə gözəl kəlağayılar istersal etmək olar. Qədimliyi və müasirliyi özündə ehtiva edən bu kəlağayılar dünya bazarlarında özünəməxsusluğu ilə seçilər, bu dəfə tək ingilis qadınlarının deyil, ümumilikdə dünya qadınlarının heyranlığını qazanar.

## Kəlağayı və yaşmaq ədəbiyyatımızda

Zərifliyi, incəliyi ilə qadınların gözəlliyinə gözəllik qatan kəlağayılarla bağlı Azərbaycan xalqının şifahi xalq ədəbiyyatı nümunələrində, dastan, qoşma, gəraylı və bayatılarında, xüsusilə də aşıq poeziyasında maraqlı, poetik fikirlər əksini tapmışdır. Kəlağayı müxtəlif dövrlərdə yaşayan şairlərimizin də diqqətini cəlb etmiş, onların misralarında inciyə çevrilmişdir. Bu şeirlərdə bəzən qadın gözəlliyi ilə kəlağayılarımızn gözəllyi harmoniya təşkil etmiş, bəzən qadınların vacib baş örtüyü kimi vurğulanmış, bəzən isə kəlağayıların qadın gözəlliyinin başlıca amili olduğu yer almışdır.

Abbas Tufarqanlının
Başına örtübdür kəlağayı gəzər,
Əyri tel üstündən qızıl düymələr.
Belinə yaraşıb zərbafdan kəmər,
Çəpkənli, çarqatlı ağ bədən gəzər,
Molla Pənah Vaqifin
Gah zaman başına tirmə şal bağlar,
Gah olur ki, zülf gizləyib, xal bağlar.
Kəlağayı qabağına al bağlar
Yaşılın altından, ağın üstündən,
Səməd Vurğunun
...Gecənin sarvanı o ulduz, o ay,
Anamın örtdüyü sarı kəlağay.
Sözümdə qalmışdır ömrüm uzunu,
Bəlkə də şairin taleyidir bu...

həmçinin də aşağıdakı şifahi xalq ədəbiyyatı nümunəsindəki

Kəlağayın ucu sarı,
Açılır könlüm qubarı,
Söylə görüm kimin yarı,
Yaxan düymələ, düymələ!

misraları yuxarıda dediklərimizi təsdiqləyir.

Eynilə də yaşmaq mövzusu, Azərbaycan qadınlarının bu yüksək keyfiyyəti zaman-zaman şair və yazıçılarımızın əsərlərində də yer alıb.

Qasımbəy Zakir
Sal ağızdan yaşmaq, şəkkər dəhanın,
Şirin-şirin danışmağı görünsün,
Molla Cümə,
Çəkibən yaşmağı, üzünü örtmə,
Sinəmin üstünə dağ qoyan dilbər!
Səməd Vurğun,
Üzündə son bahar, ağzında yaşmaq,
Sənin gözəlliyin solğun görünür,

kimi misralarında Azərbaycan qadınının pünhan gözəlliyini vurğulayaraq yaşmaq ifadəsindən bədii təsvir vasitəsi kimi istifadə ediblər.

Əbülhəsən Ələkbərzadənin "Arvadlar bir az geri çəkilmiş, yaşmaq tutmuşdular, cavanların ancaq gözləri güclə görsənirdi", Süleyman Rəhimovun "Alov artır, qaranlıq qamçılanır, günəş nazla yaşmağını qaldırır və Rüxsarənin üzünə gülümsəyirdi" cümlələrini oxuduğumuz əsərlərində yaşmağın həmin dövr qadınlarının ümumi ab-havasını əks etdirdiyini öyrənirik.

Bir sözlə, kəlağayı qədimdə başımızın örpəyi, ağzımızın yaşmağı olub. Bu kimi xüsusiyyətləri ilə kəlağayı Azərbaycan qadınının simvoluna çevrilib. Onun dəyanəti, ləyaqəti, isməti, namusu olub. Xoşbəxt günlərinin allı-güllü, bədbəxt günlərinin qara rəngli baş örtüyü olub. Zərafətimizin, nəcibliyimizin, zövqümüzün tərənnümü olub. Bacardığımız qədər bundan sonra da onu yaşatmaq hər kəsdən çox biz qadınların əlindədir. Bunu unutmayaq! Kəlağayını başımıza örməsək də, onun bir kənarını ağzımıza tərəf çəkib yaşmaqlanmasaq da, onu yaşatmağa çalışaq, bu dövrə qurban verməyək. Qız-gəlinlərimizin geyiminə diqqət yetirək, bəzən "yox" deyək ki, bizim olanlar bizdə qalsın

***Mətanət MƏMMƏDOVA***

# “Vətən uğrunda ölənlər ölümündən doğular”

Hardan sənin oldu bizim Qarabağ?
Adı sahibini demirmi aşkar?
Xoşluqla verməzlər torpağı, ancaq
Qanla möhürləyib, zorla alarlar.

Əzəli və tarixi torpağımızı qanla möhürləyib, hərb gücünə aldıq. 44 günlük Vətən müharibəsində Zəfər qazandıq. Erməni təcavüzkarlarının 30 ilə yaxın işğalında olan torpaqlarımız azad olundu. Azərbaycan Zəfər qazanmış dövlət olaraq gücünü dünyaya nümayiş etdirdi. Xalqımız Zəfər sevincini yaşadı, bütün narahat ruhlara bu sevincdən pay düşdü. Torpaq həsrəti ilə dünyasını dəyişən böyük şair Bəxtiyar Vahabzadə ruhu da bu gün şaddır. Ruhu Azad Qarabağımızda, Şuşamızda pərvazlanır.



Yatır bu torpaqda əcdadım mənim.
Şərəfim,
Şöhrətim,
Öz adım mənim...
Cəddimin yatdığı ulu torpağı,
Sinəsi sərvətlə torpağı,
Mən sənə pay verim?

- deyən şair özgə torpağı hesabına ”Böyük Ermənistan” yaradan ermənilərin vəhşi simasını obrazlı bir şəkildə təqdim edir. Vartazar yaşayan bütün ölkələri özlərinə vətən bilən ermənilərin bəlkə, bütün dünya elə vətənləri imiş.

Günahım nədir ki, qanqal kimi sən
Bütün yer üzünə səpələnmisən?..

Şair digər bir şeirində isə belə yazır:

Ey Vətən oğlu, düşün, bil ki, sənindir bu Vətən,
Sabahın, həm bu günün, həm dünənindir bu Vətən.
Sənin öz dövlətin, öz millətin, öz cəddin var
Vətən uğrunda ölənlər ölümündən doğular.

Bu müdrik misralar insana Vətənin böyüklüyünü, onun müqəddəsliyini bir daha aşılayır. Vətən bu müqəddəs məkanda doğulan, onun üstündə gəzən varlıqların diyarıdır. ”Biz Vətən məcnunu, el aşiqi, sülh əsgəriyik. Biz Vətən naminə ölsək, dirilərdən diriyik”. Əlbəttə ki, Vətən uğrunda ölənlər ən müqəddəs insanlardır və tarix boyu belə insanların ismi nə yaddaşlardan, nə də yazılı salnamələrdən silinmir. Əlbəttə ki, belə ruhda yazıb-yaradan, Vətən müqəddəsliyini, sevgisini belə möhtəşəm sözlərlə, rənglərlə ifadə etmək yaradıcı insanın içindən boy verən ali sevginin təzahürüdür. Bu sevgi müdrik qələmdən yazıya köçə bilən, dünya görmüş bir insanın düşüncələrinin əksidir. Bu hikmət Bəxtiyar Vahabzadə dünyasından qopan bir təşnədir. Azərbaycan ədəbiyyatının inkişafına mühüm töhfələr verən xalq şairi Bəxtiyar Vahabzadə Azərbaycan şeirinin son yarıməsrlik təkamül prosesində səsi, qələmi olan şairdir.

”Vaxtın dəyirmanında daş əridi, qum oldu, Tarixə atdığımız qayıtdı, lüzum oldu”. Böyük bir fəlsəfə var, bu misralarda. Zamanın gərdişi, çərxi-fələyin gərdişi. ”Çərxi-fələk istəyir lap dolana tərsinə, əqidəmi heç nəyə dəyişmərəm mən yenə”. Əqidə şairi idi, ruh şairi idi Bəxtiyar Vahabzadə. Zaman onu həyatın hər üzü ilə üz-üzə qoydu. İctimai-siyasi proseslərdə öz düşüncəsini ortaya qoydu. Böyük şair xalqın çətin günündə onunla ağladı, onun sevincinə şərik oldu.

## “ŞAM ƏGƏR YANMIRSA, YAŞAMIR DEMƏK”

Keçdiyi ömür yolu böyük bir salnamədir. Yaradıcılıq salnaməsi. Hər sətrindən Azərbaycan səsi eşidilir. Hər misrası solmayan, üstünə kölgə düşməyən qiymətli bir xəzinədir. Paylandıqca insanların iç dünyasından bir işıq boylanacaqdır. Tərcümeyi-halı ədəbiyyatımızın silinməz səhifəsidir ki, vərəqləyərkən oxuyuruq: Bəxtiyar Vahabzadə 1925-ci il avqustun 16-da Şəki şəhərində fəhlə ailəsində anadan olmuşdur. Kiçik yaşlarında ailəsilə birlikdə Bakıya köçən Bəxtiyar Vahabzadə burada orta məktəbi bitirdikdən sonra ADU-nun filologiya fakültəsində təhsil almışdır. O, universitetin aspiranturasında saxlanılmış, ”Səməd Vurğunun lirikası” mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. Sənətkar keçdiyi ömür yolunun hər mərhələsində böyük amalların, məsləklərin gerçəkləşməsində ömrünü şam kimi əritdi. ”Şam əgər yanmırsa, yaşamır deməkʺ- deyən şair, bir ömrün keşməkeşli, əzablı yollarında yaşayarkən yanmağın kökünü həyat eşqində, vətənə bağlılıqda dərk edirdi.

Bəxtiyar Vahabzadə elə bir şairdir ki, onun nəfəsindən duyulanlar vətənə sevgidən qaynaqlanır. Zamanın diqtəsini qəlbində çözürdü. Fikir dünyasında saf-çürük etdiklərini geniş bir aləmə bəxş edirdi. Azad düşüncədən yoğrulan fikirləri oxucuların ruhi dünyasına o qədər yaxındır ki, sanki cəmiyyətin verdiyi bir mesajı o, obrazlaşdıraraq misralara köçürüb. Fikir yükü dərin olan şair yazır:

Qocaldır insanı, qocaldır zaman;
Ürəyin atəşi, közü qocalmır.
Dağları, daşları qocaldan zaman,
Bilmirəm, bəs niyə özü qocalmır?

- yazaraq, hikmət xəzinəsindən oxucu dünyasına bir yol salır, onun arzu və istəklərini poetikləşdirir. Xalqın milli-mənəvi dəyərlərinin çərçivəsində vətəninə xidmət göstərən şair yaradıcılıq yolunda ana dilinin saflığı, vətəninin bütövlüyü uğrunda mübarizə aparmışdır. İctimai fəaliyyəti, onun ədəbi fəaliyyətinə heç də təsir göstərməmiş, hər iki cəhətdən, məhz Bəxtiyar Vahabzadə olduğunu sübut edə bilmiş, dövrün hadisələri və tələbləri çərçivəsində yaradıcılığında özünə qarşı münasibət oyada bilmişdir. Onun ikiyə bölünmüş vətən torpağının harayından, Qarabağ faciəsindən bəhs edən şeirləri zəngin və təqdirəlayiqdir. Azərbaycan Ali Sovetinin və Milli Məclisinin deputatı seçilmiş Bəxtiyar Vahabzadə xalqımızın həyatının ən çətin və mürəkkəb anlarında baş verən taleyüklü hadisələrə münasibətdə əsl vətənpərvər ziyalı mövqeyini nümayiş etdirmişdir. 20 Yanvar faciəsi törədilən zaman Bəxtiyar Vahabzadə faciənin törənməsini aydınlaşdırmaq, onun siyasi qiymətini vermək üçün əqidə dostlarını bir araya toplayıb çıxış edərək, postsovet məkanında, yaşadığımız dövr ərzində, sovet imperiyasına xidmət etmiş insanlara qarşı yürüdülən amansız siyasətin məğzini açmağa, onun hökmünün dərinliklərini xalqa təqdim etməyə cəhd etmişdir. Bəxtiyar Vahabzadə dövrünün şairi olsa da, zamanı qabaqlayan şəxsiyyətlər sırasındadır. Əqli düşüncəsini fəlsəfi görüşlərində əks etdirən şair 20 Yanvar faciəsinin, Qarabağ şəhidlərinin ağır və mübarizəli həyat yolunu, qaçqın-köçkün həyatı yaşayan insanların nisgil və kədərini poeziyasında əks etdirmişdir.

## DAŞ ÜRƏKLƏRDƏ YANIB DAŞLARI SINDIRDI MUĞAM

Bəxtiyar Vahabzadə tədqiqatçı-alim kimi Azərbaycan elmi qarşısında xidmətlər göstərmişdir. Şifahi ədəbi irsimizin, klassik və müasir Azərbaycan ədəbiyyatının öyrənilməsi sahəsində axtarışlarının bəhrəsi olan əsərlərini elmi ictimaiyyət həmişə dərin maraqla qarşılamışdır. Azərbaycan dilinin saflığı, təmizliyi və zənginləşməsi uğrunda mübarizə Bəxtiyar Vahabzadə yaradıcılığının mühüm istiqamətlərindən birini təşkil edir. Xalqının gücü ilə yazıb-yaratmış Bəxtiyar Vahabzadə Azərbaycan dilinə qarşı soyuq münasibət gördüyü zaman qələmini bu istiqamətdə kökləyib, ”Mənim ana dilim” şeirini yazaraq, bu şeirin arxasında bir şəxsiyyət kimi çıxış edib, ana dilinin qorunması, onun saflığının saxlanılması üçün bütün insanları - azərbaycanlıları anasına hörmət etdiyi tək, ana dilinə də belə məhəbbət və ehtiramla yanaşmağa səsləyirdi. Bəxtiyar Vahabzadə öz yaradıcılığı ilə bədii fikrimizin zənginləşməsində mühüm rol oynamışdır. Böyük söz ustası xalqımızın yüzillər boyu təşəkkül tapmış yüksək milli-mənəvi dəyərlərinin qorunması, adət-ənənələrimizin yaşadılması naminə altmış ildən artıq bir müddət ərzində yorulmadan yazıb-yaratmışdır.

Daş ürəklərdə yanıb daşları sındırdı muğam.
Haqqa düşmən olanı haqqa tapındırdı muğam
- deyən şair ondakı tilsimlərin ”Kürü ahıyla qurutdu”ğunu, ”Salı yandırdı”ğını bildirib:
Onun hər guşəsi bir xatirə, bir canlı kitab,
Keçilən yolları hərdən bizə andırdı muğam.

Böyük söz ustadının hər misrası bir fəlsəfədir və həyatı öyrənmək üçün bəlkə də bir sirli qapıdır.O, azərbaycançılıq məfkurəsi ilə dərindən bağlı olan və milli özünüdərkə çağıran çoxsaylı əsərləri ilə ədəbiyyatımızın inkişafına dəyərli töhfələr vermişdir. Azərbaycan xalqının tarixinin qədim dövrlərdən bəri müxtəlif mərhələlərində baş vermiş hadisələr və böyük şəxsiyyətlərin parlaq simaları ustad sənətkarın diqqət mərkəzində dayanırdı. Ötən əsrin 60-cı illərinin əvvəllərində qələmə aldığı ”Gülüstan” poemasının həyat və fəaliyyətinə çox böyük maneələr yaradacağını bildiyi halda, bu əsəri qələmə almışdır. Azərbaycan dövlətçiliyinə, müstəqilliyinə daim can atan, ömrü boyu müstəmləkə əleyhinə çıxış edən şair tarixi materiallara söykənib, milli qəhrəmanlıq ənənələrini yaşadan əsərlərlə mütəmadi çıxış etmişdir. Babəkin ölümü, ona qarşı olan xəyanət tarixi materiallar əsasında Bəxtiyar Vahabzadəyə tam dəqiqliyi ilə məlum olduğundan, o, Səhl Sumbat kimilərin vətən eşqi ilə yaşayan insanlara qarşı olan münasibətini, birmənalı qarşılayaraq, onlara qəti şəkildə etiraz və nifrətini bildirirdi.

Şairin əsərləri - şeir kitabları, dramları və publisistik yazıları dünyanın bir çox dillərinə, o cümlədən, ingilis, fransız, alman, fars, polyak, ispan, macar, keçmiş sovetlər birliyi xalqlarının dillərinə tərcümə edilib. Bəxtiyar Vahabzadə respublikamızın hüdudlarından uzaqlarda ölkəmizi layiqincə təmsil edərək, milli mədəniyyətimizin təbliği və ədəbi irsimizin dünyada tanıdılması naminə qüvvə və bacarığını əsirgəməmişdir. O, 70-dən artıq şeir kitabının, 2 monoqrafiyanın, 11 elmi-publisist kitabın və yüzlərlə məqalənin müəllifidir. Bəxtiyar Vahabzadənin tariximizin bir çox hadisələrini canlandıran dram əsərlərinin gənc nəslin tərbiyəsində böyük rolu olmuşdur. Onun pyesləri Azərbaycan və eləcə də, xarici ölkə teatrlarının səhnələrində uğurla tamaşaya qoyulmuş və müəllifinə geniş şöhrət gətirmişdir. Azərbaycan Akademik Dövlət Dram Teatrının səhnəsində onun ”Vicdan”, ”İkinci səs”, ”Yağışdan sonra”, ”Yollara iz düşür”, ”Fəryad”, ”Hara gedir bu dünya?”, ”Özümüzü kəsən qılınc”, ”Cəzasız günah”, ”Dar ağacı” pyesləri tamaşaya qoyulub. O, tarixi və müasir mövzuda 20-dən artıq irihəcmli poemanın müəllifidir. Azərbaycan poeziyasında vətəndaşlıq ruhunun qüvvətlənməsində və sənətkarlıq imkanlarının genişlənməsində Bəxtiyar Vahabzadənin müstəsna xidmətləri vardır. Bəxtiyar Vahabzadənin ədəbi-elmi və ictimai fəaliyyəti dövlətiz tərəfindən yüksək qiymətləndirilmişdir. 1974-cü ildə əməkdar incəsənət xadimi adına, 1975-ci ildə respublika, 1984-cü ildə isə SSRİ Dövlət Mükafatlarına layiq görülüb. 1985-ci ildə ona Azərbaycanın xalq şairi fəxri adı verilib, 1995-ci ildə Azərbaycan xalqının milli azadlıq mübarizəsində xüsusi xidmətlərinə görə ”İstiqlal” ordeni ilə təltif edilib. O, bir sıra orden və medallara, o cümlədən, Azərbaycan Respublikasının ali dövlət təltifi olan ”İstiqlal” ordeninə layiq görülmüşdür. Görkəmli şair, dramaturq və ədəbiyyatşünas, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı, xalq şairi, əməkdar incəsənət xadimi, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, filologiya elmləri doktoru, professor, Prezidentin fərdi təqaüdçüsü Bəxtiyar Vahabzadə ömrünün 84-cü ilində dünyasını dəyişib.

***Zümrüd BAYRAMOVA***

**Laçın şəhərinin və rayonun ermənilər yaşayan kəndlərinin boşaldılması üçün müəyyən edilmiş vaxt azaldıqca ermənilər arasında çaxnaşmalar və qarşılıqlı ittihamlar da artmaqdadır. Ermənistanda, həmçinin Qarabağ iqtisadi rayonu ərazisində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlılarının nəzarət zonasında yaşayan erməni əhalinin böyük əksəriyyəti Azərbaycanın tələbi və diktəsi ilə reallaşacaq həmin prosesin qarşısıalınmaz olduğunun fərqindədirlər. Onlar yaxşı bilirlər ki, 2020-ci il noyabr ayının 9-da Azərbaycan və Rusiya prezidentləri, həmçinin Ermənistanın baş naziri tərəfindən imzalanmış Bəyanatın 6-cı bəndinə uyğun olaraq müvəqqəti "sakinlər" 30 il əvvəl işğal etdikləri tarixi torpaqlarımızı tərk edərək yaşadıqları evləri boşaltmağa məcburdurlar. Necə deyərlər, özgə atına minən tez düşər...**

Yeri gəlmişkən qeyd edək ki, avqustun 11-də Qarabağ iqtisadi rayonunu ilə Ermənistanı əlaqələndirəcək yeni, Laçın dəhlizinə alternativ yolun Azərbaycana düşən hissəsində işlərin başa çatdığı elan edilib. Yolun çəkilişinin sürətlə yekunlaşması isə Ermənistanı indi çətin vəziyyətə salıb. Belə ki, düşmən ölkə yolun öz ərazisinə düşən 11 km-ə yaxın hissəsinin çəkilişini ləngitməklə



# Sayılı günlər qaldı...



## *Laçındakı və Zabuxdakı ermənilər torpaqlarımızdan rədd olacaqlar*

üçtərəfli Bəyanatın 6-cı bəndinin həyata keçirilməsini də əngəlləməyə çalışırdı. Lakin Azərbaycanın qətiyyəti qarşısında geri çəkilməyə məcbur olan Ermənistan hakimiyyəti tez-bazar yeni yolun Ermənistan ərazisinə düşən hissəsinin çəkilişlərinə başlayıb. Yerli kütləvi informasiya vasitələrinin xəbərlərinə görə, bunun üçün aidiyyəti qurumlar birdən-birə üç podratçı cəlb ediblər. İstənilən halda işlərin ən tezi 2023-ci ilin yaz aylarına qədər yekunlaşacağı mümkün olacaq. Bu isə o deməkdir ki, ermənilər Qarabağdan Ermənistana yolun Azərbaycana düşən hissəsində bir müddət əvvəl erməni blogerin etiraf etdiyi kimi "güzgü kimi asfalt yol"la, Ermənistan ərazisində isə qarşıdan gələcək yağışlı-qarlı havalarda palçıqlı torpaq yolla hərəkət etməli olacaqlar.

Yenə də erməni mediasının məlumatına görə, Laçın şəhərindən və Zabux kəndindən köç bir neçə gündür ki başlayıb, ancaq yüklərin daşınması üçün nəqliyyat çatışmazlığı var. Belə ki, vaxt məhduddur, Ermənistanın heç bir şirkəti yükdaşıyan maşınları və benzini pulsuz vermək, heç kim Zabuxda qeyri-qanuni məskunlaşmış olan "livanlılara" düşdükləri vəziyyətdə kömək etmək istəmir.

Erməni xisləti isə görünür, heç vaxt düzələn deyil. Belə ki, Laçını və bu rayondakı kəndlərimizi tərk etməyə hazırlaşan ermənilər yaşadıqları evləri 30 il əvvəl işğal etdikləri zaman, həmçinin Kəlbəcəri tərk edərkən olduğu kimi yandırmağa təşəbbüs göstəriblər. Özü də bunu utanmadan jurnalistlərə açıqlamalarında da etiraf ediblər: "Bizim olmayacaqsa, qoy heç kimə qalmasın." Yalnız "evləri yandıranlara heç bir konpensasiya verilməyəcək" xəbərdarlığından sonra mənfur əməllərindən əl çəkiblər. Allaha şükürlər olsun ki, cəmi 30 il yaşadıqları torpaqlarımızı "vətən" adlandıraraq özününküləşdirmək istəyən əcnəbi məxluqların rədd olub getmələrinə çox qalmayıb.



Ancaq gözlənildiyi kimi, reallıqla barışmayaraq Bəyanatın 6-cı bəndinin icrasından öz siyasi ambisiyalarını reallaşdırmaq üçün istifadə etməyə çalışan ermənilər də az deyil. Hətta Azərbaycan Silahlı Qüvvələrinin cəmi bir neçə gün əvvəl keçirdiyi "Qisas" əməliyyatından da nəticə çıxarmayan revanşist erməni siyasətçiləri yaranmış vəziyyətdən Ermənistanın baş naziri Nikol Paşinyana qarşı istifadə etməyə çalışır, mövcud hakimiyyəti satqınçılıqda və guya torpaqları Azərbaycana pay verməkdə ittiham edirlər. Son hadisələr nəticəsində ermənilər tərəfindən Rusiya sülhməramlılarına qarşı ittihamların artdığı da müşahidə olunur. Bir sözlə, revanşistlərin fikrincə, indi hamı günahkardır...



Əslində isə Rusiya sülhməramlıları həmişəki kimi ermənilərə qarşı loyal münasibət sərgiləməkdə davam edirlər. Belə olmasaydı onlar son günlər Ermənistanın xeyli sayda müxalifətçilərinin Azərbaycan ərazisinə qeyri-qanuni daxil olmalarına göz yummaz, bəlkə də şərait yaratmızdılar.

Bir neçə gün əvvəl Ermənistan parlamentinin müxalif "Şərəfim var" fraksiyasının üzvü Tiqran Abramyanın, ardınca isə onun gəlişindən ürəklənən "Ermənistan" blokunun bir qrup deputatının qanunsuz olaraq Qarabağa gəlmələri növbəti dəfə ciddi suallar doğurur. Erməni KİV-in məlumatına görə Qarabağa, Xankədiyə gələnlər arasında erməni müxalifətinin liderlərindən olan, Ermənistanın Milli Təhlükəsizlik Xidmətinin keçmiş direktoru, Paşinyan əleyhinə mitinqlərin əsas təşkilatçılarından olan Artur Vanetsyan, həmçinin digər müxalifətçilərdən Aqnesa Xamoyan, Aram Vardevanyan, Aqvan Vardanyan, Anna Qriqoryan, Artur Sarkisyan da var. Təfərrüatlar açıqlanmasa da onların Laçında, Zabuxda və Xankəndidə müxtəlif görüşlər keçirdikləri bildirilir.

Hər hansı qanunsuz müqavimətin, yaxud məqsədli şəkildə törədilə biləcək hansısa təxribat cəhdinin ermənilər üçün yarada biləcəyi problemləri yəqin ki erməni müxalifətçilər də dərk etməmiş deyillər. Rusların köməkliyi ilə baş tutan bu addımların yalnız bir məqsədi ola bilər - Azərbaycan ərazisinə gəlməklə guya xalqın yanında olmaq kartından Ermənistanda siyasi proseslərdə öz xeyirlərinə istifadə etməyə çalışmaq. Bu qeyri-qanuni səfərlərin baş tutması üçün imkanlar isə Laçın dəhlizinə alternativ yolun istifadəyə verilməsi ilə tam aradan qalxacaq. Az qalıb, lap az. Necə deyərlər, sayılı günlər...

***Mahir Rəsuloğlu***

# Şəhidlik zirvəsi!

*Tərtərdə şəhid Azər Şəmilovun məzarı ziyarət edilib*







II Qarabağ müharibəsi zamanı gedən döyüşlərdə torpaqlarımızı işğaldan azad edərək xalqımıza Qələbə sevinci bəxş edən, bu yolda canından, qanından keçən qəhrəman Vətən oğullarından biri olan Şəhid Şəmilov Azər Elyas oğlunun doğum günü münasibətilə məzarı ziyarət edilib. 13 avqust 2022- ci il tarixdə keçirilmiş mərasimdə YAP Tərtər rayon təşkilatının sədri Eldar Əsədov, Tərtər rayon icra hakimiyyətinin birinci müavini Elvin Umudov və rayon icra hakimiyyətinin məsul işçiləri, bir qrup YAP fəalı və şəhidin ailə üzvləri şəhidinin məzarını ziyarət edərək, xatirəsini ehtiramla anıb, məzarı üzərinə gül-çiçək dəstələri qoyaraq ruhuna dualar oxunmuşdur. Sonra tədbir iştirakçıları şəhidin ailəsini ziyarət edib, Şəhid Şəmilov Azər Elyas oğlunun şərəfli döyüş yolundan danışıblar. Mərasimdə çıxış edən YAP Tərtər rayon təşkilatının sədri Eldar Əsədov və digər qonaqlar Vətən müharibəsində qazanılan şanlı Qələbənin Azərbaycan tarixində əbədi qalacağını, Azərbaycan Ordusunun əldə etdiyi tarixi Zəfərini, uzun illərdən bəri düşmən tapdağı altında qalmış torpaqlarımızın işğaldan azad edilməsini, Azərbaycan xalqının özünəinamını geri qaytardığını, xalqın öz Liderinə etibarını daha da möhkəmləndirdiyini vurğuladılar. Şəhidin ailə üzvləri göstərilən diqqət və qayğıya görə Möhtərəm Prezident cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər. Qeyd edək ki, Şəhid Şəmilov Azər Elyas oğlu Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin sərəncamları ilə ölümündən sonra 3-cü dərəcəli " Rəşadət " ordeni , "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları və ilə təltif edilmişdir.

Allahdan bütün şəhidlərimizə rəhmət, qazilərimizə isə can sağlığı diləyirik.

***Rəfiqə***

# Cəlilabadda şəhid Əli Rüstəmovun doğum günündə xatirəsi anılıb





Cəlilabad rayonunun Çünzəli kəndində Vətən müharibəsi şəhidi Rüstəmov Əli Yağnəli oğlunun doğum günü ilə əlaqədar anım mərasimi keçirilib.

Yeni Azərbaycan Partiyası (YAP) Cəlilabad rayon təşkilatının rəhbərliyi, partiya fəalları şəhidin məzarını ziyarət edib, üzərinə tər güllər düzüb, ruhuna dualar oxuyublar.

Sonra tədbir iştirakçıları şəhidin ailəsinə baş çəkib, onların qayğı və problemləri ilə maraqlanıblar.

Şəhidin ailə üzvləri göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlıqlarını ifadə ediblər.



# Nəsimi rayonunda şəhidin xatirəsi yad edilib





Nəsimi rayonunda Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin kapitanı olan hərbi qulluqçusu şəhid Hüseynzadə Həmidağa Bağı oğlunun doğum günü qeyd olunub. Vətən müharibəsi şəhidi Hüseynzadə Həmidağanın doğum günü ilə əlaqədar Nəsimi rayon icra hakimiyyəti başçısı Asif Əsgərov, Abşeron rayon icra hakimiyyəti başçısı Abdin Fərzəliyev, Yasamal rayon icra Hakimiyyəti başçısının I müavini Hüseyn Əfəndiyev, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Ülvi Quliyev, Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov, Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev və üç rayonun ictimaiyyət nümayəndələri, Müdafiə Nazirliyinin nümayəndələri və şəhidin ailə üzvlərinin iştirakı ilə şəhidin əziz xatirəsi dərin hörmət və ehtiramla yad olunub, məzarı üzərinə gül-çiçək dəstələri düzülüb. Şəhidin ailə üzvləri göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər. Qeyd etmək lazımdır ki, Həmidağa Hüseynzadə 28 sentyabr 2020-ci ildə Murovdağ döyüşləri zamanı şəhid olub. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etdiyi və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Hüseynzadə Həmidağa ölümündən sonra "Vətən Uğrunda", 29.12.2020-ci il tarixli Sərəncamına əsasən "Kəlbəcərin azad olunmasına görə", 09.12.2020-ci il tarixli Sərəncamına əsasən "Qarabağ" ordeni ilə təltif olunub .

***Nəzakət Ələddinqızı***

# Xaçmazda Şəhid Rahim Sərdarlının xatirəsi yad edilib





Xaçmaz rayonunda Vətən müharibəsi şəhidi Rahim Sərdarlının əziz xatirəsi yad edilib. Yeni Azərbaycan Partiyası (YAP) Xaçmaz rayon təşkilatının sədri Məhəmməd Balaqadaşov, şəhid ailələri, qazilər, partiya fəalları və ictimaiyyət nümayəndələri əvvəlcə Canaxır kənd qəbiristanlığında şəhidin məzarını ziyarət edib, xatirəsini ehtiramla anaraq ruhuna dualar oxuyublar.

Şəhidin ailə üzvləri ilə görüşən YAP Xaçmaz rayon təşkilatının sədri Məhəmməd Balaqadaşov 44 günlük Vətən müharibəsindən, şanlı Qələbədən, Azərbaycan hərbçilərinin döyüşlərdə göstərdiyi qəhrəmanlıqlardan, şəhid ailələrinə və qazilərə göstərilən dövlət qayğısından danışıb. Bildirib ki, Azərbaycanın ərazi bütövlüyü uğrunda canını fəda edən qəhrəman oğullarımızın Vətən qarşısında şücaətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilir.

Şəhidin ailə üzvləri diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkürlərini ifadə ediblər.

# Yurd əmanəti oğullarımız







Dünyanın ən uca varlığı, müqqədəs, ülvi insanı olan ananın adının vətən ilə birgə çəkilməsi bu məfhumun həqiqətən də yaşadığımız həyatda müqayisə olunmaz məfhum olduğunu təsdiqləyir. Ana laylası ilə beşikdən boy atır, duaları ilə dünyamıza qədəm qoyuruq. Təmiz arzuların, müqəddəs hisslərin, uca arzuların ünvanı olan laylaların ilk səsindən daxili dünyamıza böyük duyğular, vətən, torpaq sevgisi hopur. "Göylər gurlamasın, sellər axmasın, küləklər əsməsin, şimşək çaxmasın, ana körpəsinə süd verən zaman". Bəli, anaya verilən dəyərdir, qiymətdir. Kimsə anaya toxunması, səsi ilə ananı dünyasından ayırmasın. Gələcəyin vətənin keşiyində duran müsəlləh əsgərə beşik başından bu laylalar vasitəsi ilə vətəni qorumaq kimi müqəddəs bir hiss hopur. Çox keçmir ki, hər bir övlad ana borcunu verməyə, onun keşiyində durmağa çalışır. Hər ötən gündə saçına dən düşən analarımızın ağaran saçına qara tellər əkmək, onun üzünə salınan tale qırışlarına hamar yol salmaq üçün övlad düşünür. Bu yerdə şair Məmməd Arazın misraları yada düşür: "Hərdən inanmıram ölüm haqq ola. Ana dəfn oluna, gözəl qocala". Bir ananın duyğulu dünyası ilə böyüyən övladları bir gün Anasını, ana diyarını, ana Vətənini qorumaq üçün silaha sarılaraq odunalovun içinə atılanda onun ən uca varlığının Anasının şəhid anası olaraq dünyanın ən yüksəkdə duran adının daşıyıcısı olacağını düşünmürdü. Həsrətlə yollara boylanan, yol gözləyən ananın qanı ilə torpaq suvarmış oğlunun bir gün üçrəgli bayrağa bükülmüş cənazəsinə qucaq açması bir ana böyüklüyü, bir ana qəhrəmanlığıdır. "Ana səbri böyükdür", - deyirlər. Onun sarı siminə toxunsaq, buradan onun daxili dünyasında süzülən nisgili, kədəri və təzadlı dünyada sevinci aşıb-daşan bir bulaq kimi ətrafı bürüyər.

### ANALAR ƏZƏLİ TORPAQLARIMIZA YOL ALIR

Min bir əziyyətlə, gecəsini gündüzünə qatan analarımız vətənə oğul, düşmənə çəpər böyüdür. Gözünü qırpmadan belə, oğul, Vətən dardadır, sən vətənə əmanətsən - deyir, analar. Bu Azərbaycan anasının dilini ifadəsidir. Azərbaycan anası belə böyüklüyə sahibdir. Fərarilər böyütmür, ocağında vətənə oğul böyüdür. Əlbəttə ki, qəddi-qamətini hər zaman məğrur tutan və övladlarını vətənpərvər ruhda böyüdən analarımızın həyat hekayəsi bir örnəkdir, nümunədir.

Orda bir evimiz bizlərə həsrət,
Yurddan didərginik, qonağıq, - dedin.
Yönümüz dağlara, düzlərə həsrət,
Getməsək ölərik, qınağıq, - dedin.

Bəli, minlərlə analarımız bədiiləşmiş bir portretindən nəzmə çəkilən bu misralarda görünür. Yurd yerinə həsrət qalmış analar, ata-babalarının məzarını ziyarət etməyə həsrət anlar var. Bu analar vətənə Mübarizləri, Poladları, İlqarları daha kimləri bəxş etmədi. Adları şəhidlik zirvəsində ucalan mərd, igid oğullarımız adlarını əməlləri ilə təsdiqlədilər. Mübariz olan, polad iradəli, vətəninə ilqarlı oğullar tariximizə Zəfər yazdılar. Minlərlə oğullarımızın vətənin səsinə səs verməsi bu gün vətən həsrətində olan anaların öz yurd-yuvalarının dönməsinə səbəb, 30 il qədər qubar bağlayan dərdlərə məlhəm oldular. Bu gün analar öz torpaqlarına yol alır və bu yolun mənzilinə. Bu gün artıq Zəfərimiz onları Ağalı kəndinə aparıb.

### "ONDAN MƏNƏ TƏK XATİRƏ UĞRUNDA CANINDAN KEÇDİYİ BAYRAQDIR"

Bu gün şəhid oğullarımızın biri haqqında söz açacağıq. Avqustun isti bir günündə dünyaya gələn Amil Hüseynov. Bir kənd bir mahalda dünya göz açan Amili bu gün bütün Azərbaycan tanıyır. 1986-cı ildə dünyaya göz açan Amilin sən demə, 34 illik bir yolu var imiş. Bir insan ömrünün tərcümeyihalına yazılacaq vərəqlərin 34 illik tarixini yaza bildi. Qalan illərinə canını fəda edən şəhidimiz sabahın, gələcəyin dastanında öz adını həkk edib ki, onun haqqında yazılacaq hər bir söz bu ömür yolunun yarımçıq qalmadığından xəbər verəcəkdir. Ölümündən iki ilə yaxın zaman ötsə də hər gününə bir səhifə açılıb. Füzulinin Əhmədalılar kəndində anadan olan Amil Rasim oğlu Hüseynov 1986-cı ilin avqustun 16-da dünyaya gəlib. Hər zaman ürəyi Vətən sevgisi ilə döyünən Amil hələ uşaq yaşlarından hərbçi olmaq istəyib. Məktəbdə oxuduğu müddətdə Amil idmanın karate növü ilə məşğul olub. Respublikada və xaricdə keçirilən yarışlarda iştirak edib və yüksək nailiyyətlər qazanıb, respublika çempionu olub. Gürcüstanda iştirak etdiyi beynəlxalq yarışda 1-ci yerə çıxıb. Amilin hərbi xidmətə olan marağı, Vətənə sevgisi onu öz arzusunun ardınca aparıb. 2004-2006-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2010-cu ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu idi. Kəşfiyyatçımız 9 il vətənə misilsiz xidmət göstərib. 2010-cu ildən Azərbaycan Respublikasının Daxili Qoşunlarında xidmətə başlayıb. Daha sonra Milli Ordumuzun sıralarında kəşfiyyatçı kimi fəaliyyətini davam etdirib. 2013-cü ildə Türkiyədə kəşfiyyatçı təlim kursu keçib. Vətən müharibəsinin iştirakçısı olan Amil Hüseynov Füzuli və Xocavənd uğrunda gedən döyüşlərdə xüsusi şücaəti ilə seçilib. Vətən Müharibəsi zamanı Füzuli istiqamətində gedən ən ağır döyüşlərdə böyük şücaət və igidlik göstərib. Amil Hüseynov oktyabrın 10-da Füzulidə şəhid olub. Füzuli rayonunun Əhmədalılar kəndində dəfn edilib. Şəhid Amil ölümündən sonra Prezident İlham Əliyev tərəfindən "Cəsur döyüşçü", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edilib. Şəhidin atası Rasim Hüseynov neçə-neçə şəhid atası kimi başını dik tutub, oğlu ilə fəxr edir. Oğlu Zəfərimizin yazılmasında rolu olan oğullardandır. "Şükür ki, torpaqlarımız azad olundu. Şəhidlərin qanı yerdə qalmadı" - deyir ata. Vətən üçün bundan fəxarətli nə ola bilər ki. Təzəcə ailə həyatı qurmuş Amilin həyat yoldaşına ona Vətənin rəmzi olan üçrəngli bayraq qalıb. Həyat yoldaşı Xalisə Məmmədova verdiyi müsahibələrin birində deyir: "Bizim ailə həyatımız çox qısa çəkdi. Yenicə ailə qurmuşduq. Ancaq mən fəxr edirəm ki, bu cür şərəfli yolda şəhid olmuş insanın həyat yoldaşıyam. Amil həqiqətən fəxr ediləsi bir həyat yoldaşı, insan idi. Bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Düzdür, ondan mənə bir nişanə qalmasa da, tək təsəllim onun məqamıdır. Ondan mənə tək xatirə isə uğrunda canından keçdiyi bayraqdır". Bu gün onun xatirəsi xalqın qəlbində yaşayır. Dövlətimiz və xalqımız şəhidin adını uca tutur. Şərəfli ömür yolu ilə Zəfər dastanımızı yazanlardan olan Amil neçə-neçə yetişən gəncimizə həyat yolu, məslək, əqidəsi ilə bir məktəbdir. Allah rəhmət eləsin!

*Nəzakət Ələddinqızı*

# EKSPERT: "Saxta informasiya yayan şəxslərin hədəfində istənilən şəxs ola bilər"

**"Sosial şəbəkələrdə insanların psixologiyasına birbaşa təsir edən, saxta informasiyalar, paylaşımlar üzrə qurulan savaşdayıq. Saxta informasiya və məlumat yayan şəxslər kimi gəldi hədəf götürürlər". Bu sözləri SİA-ya açıqlamasında media eksperti Azər Həsrət deyib.**




Onun sözlərinə görə, hədəfə götürdükləri insanların adından dedikləri sözləri yayırlar: "Həmin paylaşımların barəsində linç kampaniyası aparırlar. İnsanların ailələrinə qədər müdaxilə edirlər. Bütün bunlar gözümüzün qarşısında baş verir. Təəssüflər olsun ki, bu hal getdikcə genişlənir. Artıq Azərbaycan dövləti sosial media qeydiyyat məsələsinə şəxsiyyət vəsiqəsi ilə qeydiyyatdan keçmək kimi tələb gətirilməlidir. Bu tələb olmadıqda kim gəldi qeydiyyatdan keçərək özünə saxta profil açır. Həmin saxta profil vasitəsilə yalan, doğru olmayan informasiya yayaraq ictimai rəyi çaşdırmağa çalışan, cəmiyyəti qarşıdurmalara sürükləyən, ayrı-ayrı şəxslərin şıxsi həyatına müdaxilə xarakterli paylaşımlar edən insanlar bunun qarşılığında hansı məsuliyyəti daşıyacağı bilməlidir. Bunun mümkün olması üçün sosial mediada qeydiyyat şəxsiyyət vəsiqəsi, pasport və ya onlara bərabər tutulan sənədlə gerçəkləşməlidir. Düşünürəm ki, dünya bu məsələdən elə əziyyət çəkir ki, belə bir tətbiq gerçəkləşdirilsə, bunun çox ciddi faydası və nəticəsi ola bilər".

*Arzu Qurbanlı*

# Meyxanaləri bahalı edən nədir?

***Meyxanə mədəniyyətinin necə yarandığı barədə danışmazdan əvvəl bu sözü araşdıraq. "Mey" və "xanə" sözləri fars dilindəndir. Mey şərab, xanə isə ev deməkdir. Bu baxımdan deyə bilərik ki, meyxanə sözünün mənası şərab evi deməkdir. "Mey" sözünün mənası zaman keçdikcə genişlənərək hər cür içkini əhatə edir, lakin xüsusilə türk içkisi olan rakıya işarə edir.***

## Liman mədəniyyəti və meyxanələr

Bizans dövründə dəniz ticarətinin inkişafı ilə ortaya çıxan "Liman mədəniyyəti" meyxanə mədəniyyətini də özü ilə gətirmişdir. Bu səbəbdən meyxanə mədəniyyətinin həm də Liman mədəniyyəti olduğunu deyə bilərik. Konstantinopol limanlarında müxtəlif millətlərdən olan insanların yaratdığı harmoniya ilə çox rəngli anlar yaşanıb.

Meyxanə mədəniyyətinin necə yarandığı haqqında təsəvvürü olmayanlar bu mədəniyyətin yaxın keçmişdə yarandığı barədə yanlış təsəvvürə düşə bilərlər. Meyxanə mədəniyyəti öz köklərini düşünüldüyü qədər yaxın zamanlarda deyil, Bizans dövründən götürür. O dövrdə Bizansın hökm sürdüyü Konstantinopolda varlıların getdiyi müxtəlif içki yerləri var idi. Bu yerlər taverneia, pouskareia və capeleia kimi tanınırdı. İndiki meyxanalara ən yaxını Kapeleia olduğunu söyləyə bilərik. Bu, şərabın yanında balıq, ətlə bişirilmiş və ya paxlalı bitkilərdən hazırlanmış yeməklər təqdim edən şərab satmaq üçün lisenziyalı bir içki yeri idi. Bundan əlavə, Bizans dövründə meyxanələr, xüsusən də, ruhanilərin təsiri ilə mərkəzi hakimiyyətin ciddi nəzarəti altında idi. Bu məlumatlara əsasən belə qənaətə gəlmək olar ki, Osmanlıdan əvvəl də meyxanalara müxtəlif sanksiyalar tətbiq edilib.

Fatehin fəthi zamanı bölgədəki səyyahlar İstanbulu meyxanələr şəhəri adlandırırdılar. Osmanlı dövründən bir çox yazıçılar həm meyxanələr üzərində işləmiş, həm də kitablarında yalnız meyxanələrdən bəhs etmişlər.

Osmanlı İmperatorluğunun bütün dövrlərində spirtli içkilərin qadağan edilməsinə baxmayaraq, fəthdən sonra qeyri-müsəlmanların mədəniyyətinə çevrilən meyxanələrə müəyyən sanksiyalar tətbiq edilsə də, yenə də güzəştlər edilirdi. Əslində Osmanlıdan əvvəl İstanbul limanlarının aid olduğu Bizans İmperiyası bu mədəniyyətin toxumlarını səpmişdi və artıq yetişmişdi.

Osmanlı dövründən bəri mədəniyyətimizdə meyxanaların çox mühüm yeri olmuşdur.

## Meyxanə necə olmalıdır?

Azərbaycanda və Türkiyədə meyxanə (meyhanə) anlayışı bir qədər fərqlidir. Belə ki, bizdə meyxanə məkanları daha yüksək səviyyəli, daha bahalı görüntüyə və qiymətə sahibdir. Türkiyədə isə daha sadə, daha çox köhnə tipli məkanlar meyxanə kimi fəaliyyət göstərir. Türkiyədə meyxanəyə, əsasən, dərdli insanlar içib dərdini dağıtmaq üçün gedirlər. Bizdə isə əsasən vəziyyət əksinədir. Azərbaycanda meyxanəyə gedənlərin çoxu əylənmək üçün üz tutur.

Digər mühüm məqam isə Azərbaycanda meyxanələrə baxış da fərqlidir. Belə ki, bır sıra insanlar buranı ailəvi məkan olaraq görmür. Ölkəmizdə əksər insanlar meyxanəyə ailəsi ilə gəlmir və buna da onların deyimi ilə desək, düz baxmırlar. Bəs, ölkəmizdə meyxanələrdə (meyhanelerdə) vəziyyət necədir? Depozit qiymətləri hansı aralıqdadır? Bu məkanlara hansı təbəqənin insanları üz tutur? SİA mövzu ilə bağlı araşdırma aparaq ekspert, sosioloq, restoran və otel üzrə mütəxəssislərin fikirlərini öyrənib.

Ölkəmizdə mənfi məkanlarla yanaşı, yüksək səviyyəli meyxanələr də var. Bunlara bir neçəsini misal göstərmək olar.



"Sosyete Meyhane Baku" adlı məkanda 1 nəfər üçün depozit haqqı 50 AZN-dır.

"İstanbul Meyhane Bilgah" adlı məkanda 2 nəfər üçün nəzərtə tutulmuş masanın depoziti 100 AZN-dır. Qeyd edək ki, məkanda səhnə önü (vip) masaların deoziti 650 AZN təşkil edir. 4 nəfərlik masalar 350 və 6 nəfərlik masalar 450-550 AZN aralığındadır. Qiymətlərə Fix menyu daxildir. Fix menyuya isə bütün növ yeməklər və spirtsiz içkilər aiddir.

"Kaddeh Restoran" adlı məkanda ön masa 80 AZN, kənar masa 50 AZN, VIP Lounge 500 AZN-dir və maksimum 6 nəfərlik nəzərdə tutulub. Depozit qiyməti adam başı nəzərdə tutulub və qiymətə menyu daxildir.

DAİR Otellər və Restoranlar Assosiasiyası İdarə Heyətinin sədri Samir Dübəndi: "Otel və meyxanələrdə qiymətlərin baha olması ilə bağlı fikirlərimizi müxtəlif KİV-lərə bildirmişik. Biz meyxanələri peşə dilində başqa cür adlandırırıq. Belə ki, bu məkanlar gecə klubları, barlar, şənlik proqramları və canlı musiqi təqdim edən ictimai iaşə obyektləridir.



Gecə həyatı artıq Bakı şəhərinə xasdır. İnkişaf etmiş turizm distinasiyası kimi bizim də müəyyən xüsusiyyətlərimiz var. Ölkəmiz xaricə gecə həyatı turları da təklif edir.

İqtisadiyyatın qanunu olaraq tələb və təklif münasibətləri var. Bunlar yalnız bərabər olduqda hansısa qiymət və təkliflər ortaya çıxır. Ona görə də çox eşidirik ki, qiymətlərdən gileylənmələr var. Sosial şəbəkələrdə də bu barədə yazıb müxtəlif fikirlər bildirirlər. Bu barədə tədqiqatlar da aparılır. Amma açığını deyim ki, KİV tərəfindən aparılan bu tədqiqatlar səthi xarakter daşıyır. Dərin problemlərə heç kim toxunmaq istəmir.

Əgər bu gün bazarda hər hansı bir qiymət və təklif olunursa, deməli, onlara tələbat var və onların da öz müştərisi olur. Daha çox görürük ki, şikayət edənlər həmin müəssisələrin daimi müştəriləri deyil. Çünki onlar bu məkanları sevir. Şikayət edənlər təsadüfi müştərilərdir ki, onlar da beyinlərində daha aşağı məbləğ tutaraq bu məkanlara gəlir.

O ki qaldı ictimai iaşə müəssisələrində olan bahalığa, bunu biz də təsdiqləyirik. Enerji daşıyıcılarının və bir sıra qida məhsullarının bahalaşması da buna səbəbdir. Digər səbəblər də var və biz bunları bir neçə dəfə açıqlamışıq. Xarici turistlərin sayı da qiymətlərə təsir göstərir. Hər bir müəssisə çalışır ki, xarici turistlərə hər şeyi daha baha satsın və fayda qazansın. Turistin də milli valyutasında bizim qiymətlər baha görünmür. Bunun nəticəsində də xariciyə 15 manata satacağımız bir şiş kababı, çalışırıq ki, öz yerlimizə də bu qiymətə sataq. Bu, qəbulolunmazdır.

Depozitlər 50 manatdan başlayaraq hətta bir neçə min manata qədər irəliləyir. Qiymət artımı şənlik, canlı musiqi və s. asılıdır. Bu təkliflərin öz istehlakçıları da bazarda tapılır.

Burada qeyri-peşəkar elementlər də var. Bu gün restoran biznesi ilə məşğul olan bir çox insanlar düşünürlər ki, bu sahədə təhsil almaq heç də vacib deyil və hər kəs bunun üstəsindən gələ bilər. Restoran biznesi bir o qədər də böyük investisiya tələb etmir. Nəticədə savadsız və bu sahədən xəbərsiz insanlar da bu sahədə çalışır.

Savadlı insan qiymətlərə də savadlı yanaşacaq. Bu gün bir çox müəssisədən soruşsaq ki, "Sizin satış qiymətləriniz nəyin əsasında formalaşıb?" görəcəyik ki, əksər müəssiələr heç düzgün hesablama aparmırlar. Bu da savadsızlıqdan irəli gəlir. Yəni, sahədən xəbərsizdirlər və bu sahədə biliklər yoxdur.

Biz bilirik ki, dövlət mexanizmləri var. Onlardan biri də lisenziyadır. Qeyd edim ki, 2015-ci ildən turizm və qonaqpərvərlik sahəsinə aid olan lisenziyalar ləğv olunub. Digər tərəfdən standartlaşma sertifikatlaşma mexanizmləri var. Bu gün misal gətirsək, ictimai iaşə müəssisələrinin sanitariya qaydalarına uyğunluğu AQTA tərəfindən sertifikatlaşma ilə təmin olunur. Amma biz bu prosesə baxsaq, zahirdən anlayarıq ki, sanitariya qaydaları pozulan yerlərdə də bu sertifikatlaşma edilib. Görünür ki, bu sistemdə boşluqlar var.

İctimai iaşə müəssisələri bizim kimi assosiasiyaların ətrafında birləşərək biznesin vahid səslə hansısa istəklərini çatdırmaq imkanı yaranır. Onların təbii ki, vahid maraqları var. Onların əsasında da müxtəlif proseslər və qiymətlər tənzimlənə bilir. Bu məsələ ölkədə bir az zəifdir".

**Biznesin İnkişafı Üzrə Mütəxəssis Nicat Manaf:** "Ümumiyyətlə, kafe və restoranlarda "depozit" adı altında yığılan məbləğlər qanunsuzdur. İstehlakçını heç kim məcbur edə bilməz ki, sən filan qədər restoranda pul xərcləməlisən. Xüsusilə, "meyhane" konsepti altında fəaliyyət göstərən restoranlarda musiqi haqqı, əlavə xidmət haqqı kimi məcburi ödənişlər alındığını müşahidə edirik. İstehlakçıların ciddi narahatçılığına səbəb olan son dövrlərdə artıq trend halını almış "depozit" adı altında toplanan stolbaşına pullardır. İstehlakçılar hüquqlarının pozulduğuna görə rahatlıqla Antiinhisar Dövlət Xidmətinə müraciət edə bilərlər.

Təkrar edirəm ki, restoranın depozit al-



maq kimi xidmət sahəsi yoxdur. Bu, minimum xərcləmə limitini qarantiyaya almaq üçündür ki, bu da qanunsuzdur.

İşbaz sahibkarın müxtəlif adlar altında istehlakçılardan qanunsuz yolla məbləğ toplaması çox təəssüflər olsun ki, postpandemiya dövründə ölkəmizdə pik həddə olmaq üzrədir".

**Jurnalist Araşdırmaları Mərkəzinin sədri, Yenisabah.az saytının baş redaktoru Seymur Verdizadə:** "Dünyanın əksər ölkələrində gecə klubları və meyxanələr fəaliyyət göstərir. Təbii ki, Bakıda da anoloji obyektlər var. Hansısa meyxanənin olmasını qəbahət saymaq olmaz. Sadəcə, bu obyektlərin fəaliyyəti qanunla tənzimlənməlidir. Bu obyektlər əxlaqsızlıq yuvası və sərxoş adamların toplaşdığı yerlər olmamalıdır. Bura istirahət mərkəzi olmalı və insanlar da öz hərəkətlərinə diqqət etməlidirlər.



Təəssüf ki, Azərbaycanda gecə klubları və mehxanələrdə kriminal zəmində münaqişələr baş verir. Bu məkanların sakinlərinin narkotik aludəçiliyi barədə sıx-sıx informasiyalar yayılır. Bu da onu göstərir ki, həmin məkanlarda nəzarət zəifdir. Yəni, hüquqmühafizə orqanları həmin məkanlara yaxşı nəzarət etmirlər və yaxud da etmək istəmirlər. Bunun da obyektiv və subyektiv səbəbləri var. Əsas səbəb odur ki, həmin məkanlar oliqarxlara və yüksək səviyyəli məmurlara məxsusdur. Bu, tamamilə yolverilməzdir. Tutduğu vəzifədən asılı olmayaraq hər bir sahibkarın obyektinə nəzarət olunmalıdır".

***Ayşən Vəli***

ARAŞDIRMA

# Qidamızı özümüz istehsal edə bilərikmi?

## İlham Əliyev: “Əminəm ki, növbəti 3-5 il ərzində biz ərzaqla özünü təmin etməkdə 100 faiz səviyyəsinə çıxacağıq”

***Dünya iqtisadiyyatında sənayenin üstünlük təşkil etməsinə baxmayaraq kənd təsərrüfatının vacibliyi indi daha çox nəzərə çarpır. Dünya bazarlarında ərzaq məhsullarının sürətlə bahalaşması, BMT-nin qlobal ərzaq böhranının yarana biləcəyi haqda xəbərdarlığı vəziyyətin ciddi olduğunu göstərir. İnkişaf etmiş dövlətlərin təcrübəsi göstərir ki, aqrar sahəni inkişaf etdirmədən ölkədə məhsul bolluğu yaratmaq, əhalinin sosial vəziyyətini yaxşılaşdırmaq mümkün deyil.***

Son illər dövlət səviyyəsində aqrar sahənin inkişafı məqsədilə bir sıra təşkilati, hüquqi və iqtisadi tədbirlərin həyata keçirilməsi də məhz buradan irəli gəlir. Prezident İlham Əliyev də ölkə iqtisadiyyatında qeyri-neft sektorunun, xüsusilə də, kənd təsərrüfatının prioritet sahə olaraq yer tutması üçün mümkün olan hər şeyi edir.

Yaxşı torpaq fonduna, münasib iqlim normasına və sair təbii-coğrafı, iqtisadi-ticari, şaxələnmiş nəqliyyat imkanlarına malik Azərbaycanda isə bu sahənin çox böyük potensialı var. Prezident İlham Əliyevin İsmayıllı və Ağsu rayonlarına səfərləri zamanı bu məsələlərlə bağlı verdiyi açıqlamalar aqrar sektorun inkişafının ölkəmiz üçün nə qədər əhəmiyyət daşıdığını və dövlətin əsas prioritetlərindən olduğunu göstərir.

”Bildiyiniz kimi, bu gün ərzaq təhlükəsizliyi ilə bağlı dünyada çox böyük narahatlıq var. O cümlədən Azərbaycan da bu istiqamətdə fəal iş aparır. Görülmüş və görüləcək işlər nəticəsində biz özümüzü bu sahədə də təmin etmiş ölkəyə çevirəcəyik və ərzaq təhlükəsizliyi məsələləri, əminəm ki, Azərbaycanda maksimum dərəcədə təmin olunacaq”- deyən dövlət baçısı yaxın gələcəyin proqnozunu verib.

Prezident İlham Əliyev deyib ki, biz öz iqtisadiyyatımızı dünya iqtisadiyyatına inteqrasiya edərək bazar iqtisadiyyatının bütün təməl prinsiplərini Azərbaycanda tətbiq etdik: ”Bu gün Azərbaycanın ümumi daxili məhsulunun strukturuna baxsaq, görərik ki, ümumi daxili məhsulumuzun əksər hissəsini özəl sektor formalaşdırır, həm yerli şirkətlər, həm xarici investorlar, xarici şirkətlər. Belə olan halda dünyada gedən istənilən iqtisadi proses bizə də təsirsiz ötüşmür, bizə də təsir edir. O cümlədən dünyada mövcud olan ərzaq mallarının bahalaşması da, əlbəttə ki, bizə də təsir edir. Bu il dünyanın əksər ölkələrində inflyasiya ikirəqəmli inflyasiyadır. Bildiyiniz kimi, inkişaf etmiş ölkələrdə inflyasiya çox aşağı səviyyədə olur. İndi biz hətta o ölkələrdə ikirəqəmli inflyasiyanı görürük”.

Dövlət başçısı qeyd edib ki, mövcud potensialdan səmərəli istifadə etməklə böyük perspektivlər əldə etmək olar: ”Ərzaq mallarının qiymətinin qalxması da Azərbaycana bir növ,- əgər belə demək mümkündürsə, - idxal olunub. Çünki biz hələ də özümüzü tam, yəni, 100 faiz əsas ərzaq məhsulları ilə təmin edə bilmirik... Bu gün biz özümüzü ət məhsulları ilə 90 faiz, quş əti ilə 80 faiz, süd, süd məhsulları ilə 85 faiz səviyyəsində təmin edirik. Əminəm ki, növbəti 3-5 il ərzində biz 100 faiz səviyyəsinə çıxacağıq, baxmayaraq ki, tələbat da artır. Çünki əhali artır.

Amma əfsuslar olsun ki, biz özümüzü taxılla hələ uzun illər tam



təmin edə bilməyəcəyik. Özümüzü buğda ilə təminetmə əmsalı Azərbaycanda bu ilin əvvəlinə 62 faiz idi. Məhz bu məqsədlə xüsusi proqram işlənib hazırlandı, yeni növ subsidiyaların tətbiq edilməsinə start verildi və bunun nəticəsində əminəm ki, ərzaqlıq buğdanın Azərbaycanda istehsalı kəskin artacaq. Ancaq bu, vaxt tələb edəcək.

Mən hesab edirəm ki, təqribən 3-4 il ərzində biz özümüzü ərzaqlıq buğda ilə 80 faiz səviyyəsində təmin edə bilsək, bu, çox böyük nəticə olacaqdır. Taxılın qiymətinin dünya bazarlarında qalxması bütün ölkələrə təsir göstərir. Ancaq bugünkü vəziyyət ondan ibarətdir ki, təkcə qiymətdən söhbət getmir, eyni zamanda, taxıl qıtlığı yaşanır...bir çox ölkələr fiziki cəhətdən öz əhalisini buğda ilə, taxılla təmin edə bilmirlər... ancaq Azərbaycanda bu sahədə heç bir problem yoxdur. Biz ənənəvi olaraq taxılı da, gübrəni də Rusiyadan alırıq. Rusiyalı tərəfdaşlarımızla əldə edilmiş razılaşmalar nəticəsində Azərbaycana istədiyimiz qədər həm gübrə, həm taxıl ixrac edilir və ediləcək.

Gübrəyə gəldikdə isə, bildiyiniz kimi, biz özümüz də artıq gübrə istehsalçısı olmuşuq və hətta karbamid gübrəsini ixrac edirik. Amma digər gübrələr Azərbaycana idxal olunur. Bir sözlə, bax, bu amillər reallıqdır və biz real həyatda yaşayırıq. Özümüzü bütün problemlərdən tam sığortalamaq üçün praktiki işlər aparırıq və aparacağıq. Əminəm ki, növbəti illərdə həm bu gün mövcud olan əkin sahələrində daha bol məhsul götürmək üçün suvarma layihələri, düzgün aqrotexniki tədbirlərin görülməsi və digər tədbirlər, subsidiyalar nəticəsində biz məhsuldarlığı böyük dərəcədə artıra biləcəyik”.

Ölkə başçısı işğaldan azad edilmiş ərazilərin iqtisadi imkanlarına da toxunub: ”Biz artıq azad edilmiş torpaqlarda da əkin-biçinlə məşğuluq. Mənim göstərişimlə vaxt itirmədən əkin işləri aparılmışdır, minalardan təmizləmə işləri aparılmışdır. Hesab edirəm ki, gələcəkdə Qarabağda və Şərqi Zəngəzurda yetişdiriləcək məhsullar, o cümlədən ərzaq təhlükəsizliyimizin tam təmin edilməsində bizə böyük kömək göstərəcək...



Torpaqlarımız işğalçılardan azad olunandan sonra mən dərhal göstəriş verdim ki, biz vaxt itirmədən bu torpaqlarda əkin-biçinlə məşğul olmalıyıq. Bu il 50 min hektarda taxıl əkilmişdir və artıq məhsul yığımı da sona çatmaq üzrədir. Düzdür, məhsuldarlıq çox aşağıdır, bu da təbiidir. Çünki uzun illər bu torpaqlar istifadəsiz qalmışdır, suvarma da yoxdur, dəmyə şəraitində taxıl yetişdirilir və birinci ildir ki, əkin aparılmışdır. Ona görə hektardan orta məhsuldarlıq təqribən 1 tondan aşağıdır. Ancaq əminəm ki, növbəti illərdə məhsuldarlıq daha da artacaq, əkin sahələri artacaq.

Mən hesab edirəm ki, biz azad edilmiş torpaqlarda taxılçılıq üçün ən azı 100 min hektar dövriyyəyə buraxmalıyıq və əlbəttə ki, bütün müasir aqrotexniki tədbirlərin görülməsi, o cümlədən suvarma məsələlərinin düzgün təşkil edilməsi şərtilə. Vaxtilə Azərbaycanda aparılmış kənd təsərrüfatı islahatı zamanı buraxılan səhvlərə yol verə bilmərik, hər şey düzgün, şəffaf olmalıdır və əminəm ki, bunun nəticəsində ən böyük məhsuldarlıq məhz işğaldan azad edilmiş torpaqlarda olacaq”.

Azərbaycan Prezidenti İlham Əliyev aqrar sahənin ölkənin iqtisadi inkişafına həlledici təsirini daim yüksək qiymətləndirir, hökumət qarşısında kənd təsərrüfatına diqqət və qayğı göstərilməsini mühüm vəzifə kimi qoyur. Dövlət başçısı ayrı-ayrı çıxışlarında aqrar sahənin inkişafında iş adamlarının, fermerlərin gücündən, imkanlarından səmərəli yararlanmağın zəruriliyini bildirir.

Kənd təsərrüfatı məhsulları istehsalçılarına verilən müddətli vergi güzəştləri ilə bərabər, dövlət tərəfindən onlara yanacaq, motor yağlarının və mineral gübrələrin alınmasında güzəştlər edilir, subsidiyalar verilir.

Bununla yanaşı, kənd təsərrüfatı məhsulları istehsalçılarının buğda toxumuna, mineral gübrələrə və damazlıq heyvanlara olan ciddi ehtiyacı ölkəmizin ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində əlavə tədbirlərin görülməsini şərtləndirir.

Kənd təsərrüfatı məhsullarının fermerlər tərəfindən bazarlara sərbəst çıxarılmasını təmin etmək məqsədilə satış yarmarkalarının keçirilməsi, sahibkarlığın inkişafına dövlət tərəfindən hərtərəfli qayğı göstərilməsi aqrar sahədə yetişdirilən məhsulların itkisiz yığılmasına müsbət təsir göstərir, istehsalda artım əldə edilir, məhsuldarlıq yüksəlir.

Diqqəti cəlb edən cəhətlərdən biri də budur ki, məhsul istehsalı sahəsində artım getdikcə özünü daha qabarıq göstərir. Belə ki, bitkiçilik məhsullarının istehsalında əldə edilən artım əkin sahələrinin artırılmasından daha çox, məhsuldarlığın yüksəldilməsi hesabına təmin olunur.

Onu da qeyd edək ki, məhsulun maya dəyərinin aşağı salınmasında və gəlirin çoxalmasında məhsuldarlığın artırılmasının mühüm əhəmiyyəti var. Bunun üçün isə təbiidir ki, fermerlərin keyfiyyətli toxumlarla təminatını yaxşılaşdırmaq, becərmənin aqrotexniki qaydalara uyğun aparılması ilə yanaşı, torpağın münbitliyini artırmaq ən başlıca şərtdir.

Kənd təsərrüfatı məhsullarının becərilib toplanması ilə yanaşı, onun qiymətlərinə təsir edən amillərdən biri də həmin məhsulların bazarlara daşınması xərcləridir. Bu sahədə mövcud problemlər bazarlarda əsassız bahalaşmaya, bəzən də süni şəkildə məhsul çatışmazlığına gətirib çıxarır.

Əsas problemlərdən biri də, fermerlərə ayrılan subsidiyaların onlara vaxtında çatmaması, hətta bəzi hallarda büroktik əngəllərdən dolayı ümumiyyətlə ala bilməmələridir. Bununla bağlı sənədləşmə həddən çoxdur ki, bu da bir çox hallarda işə zərər vurur. Misal üçün, taxıl əkini üçün verilən subsidiyalar yerlərdə bürokratik əngəllər səbəbindən bəzi hallarda yazlıq və ya payızlıq əkindən sonra verilir ki, bu mənfui nəticə verir. Çünki əkinçilər gübrə, dərman, su üçün xərclər çəkməlidirlər. Bu xərclər üçün əllərində vəsait yoxdursa əkmirlər və ya əkilən sahəyə düzgün qulluq edə bilmirlər. Nəticədə, məhsul yığımı azalır.

Fermerlərə verilən güzəştli aqrar kreditlərlə bağlı da problemlər var. Bir çox fermer bu kreditlərdən yararlana bilmir. Nəticədə 5 faiz əvəzinə 10-15 faizlə kredit götürməli olur ki, bu da onun təsərrüfatını inkişaf etdirməyə imkan vermir.

Daha bir problem suvarma ilə bağlıdır. İyul-avqust ayları həddən artıq isti və quraq keçdiyindən suya tələbat kəskin artır, su dövriyyəsi isə azalır. Nəticədə bəzi əkinlər normal su ala bilməyib yanır və məhsul istehsalı azalır.

Bu kimi problemlər aradan qaldırılsa, ölkəmizin aqrar sektorunda ciddi inkişaf yaranar və həm ərzaq təhlükəsizliyimizi təmin etmiş olarıq, həm də xarici ölkələrə aqrar məhsullar ixrac edib valyuta əldə edərik.

***Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi” istiqaməti çərçivəsində hazırlanıb*

# Mbappedən PSJ-yə ŞƏRT:
# Neymarı satın!




PSJ-nin futbolçusu Kilian Mbappe klubdan komanda yoldaşı Neymarı satmalarını istəyib. Qol.az xəbər verir ki, bu barədə GFFN məlumat yayıb. 23 yaşlı hücumçu artıq məsələyə görə Paris təmsilçisinin rəhbərliyinə də müraciət edib. Mbappenin yaxınları da oyunçunun bu yay müqaviləsinin yenilənməsindən sonra Neymarın satılması üçün çalışır.

Bir müddətdir ki, 2 futbolçu arasında gərginlik yaşanır. Onların münasibətləri əvvəlki kimi möhkəm deyil. Mbappe son 5 ildə 30 yaşlı forvarddan çox şey öyrəndiyinə inanır. Lakin indi o, digər komanda yoldaşı Lionel Messinin təcrübəsindən yararlanmaq istəyir.

Qeyd edək ki, Neymar və Mbappe 2017-ci, Messi isə 2021-ci ildən PSJ-də oynayır.

# Yaş saçlarla yatmağın orqanizmə zərərli təsiri

**Mütəxəssislər yaş saçla yatmağın orqanizm üçün zərərli olduğunu deyirlər, çünki bu, ilk növbədə baş dərisində yaşayan göbələklərin artmasına və kəpəyin yaranmasına səbəb olur. Gün boyu saçlar nəmli qaldıqda daha da kövrəkləşir və tökülməyə başlayır. Eyni zamanda baş, boyun və onurğa ağrılarına səbəb olur.**

Həkim-terapevt Leyla Fətullayeva bu barədə deyib: "Saç uzun müddət nəm qaldıqda başın dərisində göbələyin inkişafına əlverişli şərait yaranır və kəpək əmələ gələrək artıb çoxalır. Yaş saçlarla yatanda yastıq nəm qaldığı üçün toz gənələrinin inkişafına, bu isə öz növbəsində allergiya və astmanın inkişafına aparıb çıxarır. Nəm saçlarla açıq pəncərə altında yatmaq soyuqlama yaradır".

Onun dediyinə görə, saçların uzun müddət nəm qalması immuniteti zəif olanlarda infeksiyanın yaranma riskini artırır: "Virusayoluxma, soyuqlama, hərarətin artması və digər xəstəliklərin əlamətləri müşahidə olunur. Baş yuyulduqdan sonra saç tam qurudulmalıdır ki, nəm qalmasın və həm saçın görünüşünə ziyanlı təsir göstərməsin, həm də orqanizmdə hər hansı allergiyanın inkişafına və ya hansısa xəstəliyin yaranmasına səbəb olmasın".

Həkimlər yaş saçla uzun müddət Günəş altında qalmağı da məsləhət görmürlər, çünki Günəş şüaları saçları yandırır və tüklərin kövrəkləşməsinə səbəb olur.





## Bu gün 42 dərəcəyədək isti olacaq

Avqustun 16-na gözlənilən hava şəraiti açıqlanıb. Milli Hidrometeorologiya Xidmətindən SİA-ya verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında güneşli. Cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 24-28° isti, gündüz 35-39°, bəzi yerlərdə 40°isti, Bakıda gecə 25-27° isti, gündüz 37-39° isti olacaq. Atmosfer təzyiqi 757 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 55-60 %, gündüz 30-35% olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 21-26° isti, gündüz 35-40°, bəzi yerlərdə 41-42° isti, dağlarda gecə 14-19° isti, gündüz 26-31° isti olacaq.

# Uşaqlardakı davranış pozuntularını necə aradan qaldırmaq olar?

**"Uşaqların nitqinə baxsaq qığıldama dövrü, səslər, hecalı nitq, sözlər, sadə cümlələr və mürəkkəb cümlələr olaraq ayırmaq olar. Artıq 1 yaşında sözlər artır, sadə cümlələr meydana gəlir. Cüzi gecikmələr normal sayılır. Lakin kəskin şəkildə nitqdə ləngimələr varsa, mütləq bir mütəxəssis baxışı vacibdir". Bu fikirləri SİA-ya açıqlamasında psixoloq Tahiba Quliyeva bildirib.**



Psixoloq açıqladı

Psixoloqun sözlərinə görə, nitqdə yaranan bir sıra problemlər uşağın psixoloji vəziyyəti inkişafı ilə əlaqədardır: "Əgər uşaqda nitq problemi varsa, bu, əksər hallarda uşağın psixoloji inkişafı ilə bağlı olur. Valideyn bəzən hər şeyin normasında olduğunu, yalnız nitqdə problem olduğunu (Nitq gözlə daha aydın görünən tərəf olduğu üçün) fikirləşir. Lakin diaqnostika zamanı müəyyənləşir ki, uşaqda hansısa psixi ləngimə, pedaqoji ləngimə, əqli gerilik, autizm, eşitmə problemləri və s. var. Bu problemlərlə ilk olaraq psixoloq işləməlidir. Çünki psixoloji iş nəticəsində nitq mərkəzi aktivləşəcək və uşağın nitqi inkişaf etməyə başlayacaq. Daha sonra bir nitq mütəxəssisi ilə paralel iş aparılmalıdır. Bundan başqa psixoloji səbəblərdən uşaqda mutizm, kəkələmə kimi problemlər də yaranır. Kəkələmə hansısa bir qorxuya bağlı yaranır çox vaxt. Bu halda mütləq psixoloq, loqoped paralel iş görməlidir.

Mutizm də (seçici nitq) yenə eyni şəkildə hansısa bir travmaya bağlı meydana gəlir. Mutizmli şəxs danışırdı, lakin hansısa güclü bir halda terapiyalar güclü nəticə verir.

Təəssüf ki, cəmiyyətimizdə "ay atası da gec danışıb, dayısı da gec dil açıb" deyərək problemlərin həllini gecikdirirlər. İşinizi heç vaxt şansa buraxmayın. Erkən edilən müdaxilə bir çox problemin 100% həll olunması deməkdir".

*Banuçiçək Hüseynli*



*Baş redaktor:*
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 3300